*Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.*
*Heydər ƏLİYEV*

# DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

19 mart 2018-ci il № 21-24 (9207) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiyməti 50 qəpik

## BU SAYIMIZDA


### SƏFƏRDƏ OLAN DƏNİZÇİLƏRİMİZ DƏ SƏSVERMƏ HÜQUQLARINDAN İSTİFADƏ EDƏCƏKLƏR

***Aprelin 11-də ölkədə Prezident seçkiləri keçiriləcək.***

Həmin gün Xəzərdə və ya xarici sularda xidməti vəzifələrini yerinə yetirən dənizçilərimiz də səsvermə hüquqlarından istifadə edəcəklər. Onlar mövcud qanunvericiliyə uyğun gəmilərdə səs verəcəklər.

Səh. 2

### AZƏRBAYCANLA İRAN BÜTÜN SAHƏLƏRDƏ UĞURLA ƏMƏKDAŞLIQ EDİR



***İqtisadiyyat naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti 12-14 martda İran İslam Respublikasında səfərdə olub.***

Səh. 3

### HƏMKARLARI QOCAMAN DƏNİZÇİNİN BAYRAM SEVİNCİNƏ SEVİNC QATDILAR



***Novruzun üçüncü çərşənbəsi olan Yel çərşənbəsində həmkarları qocaman dənizçini evində ziyarət etməklə sevindiriblər.***

Səh. 4

### ADDA İLƏ MƏRAKEŞ ALİ DƏNİZ ARAŞDIRMALARI İNSTİTUTU ƏMƏKDAŞLIQ EDƏCƏK



***Azərbaycan Dövlət Dəniz Akademiyası ilə Mərakeş Ali Dəniz Araşdırmaları İnstitutu arasında əməkdaşlığa dair niyyət protokolu imzalanıb.***

İmzalanma Xarici İşlər Nazirliyində Azərbaycan-Mərakeş Hökumətlərarası Birgə Komissiyanın ilk iclası çərçivəsində baş tutub.

Səh. 5

### DƏNİZÇİLƏRİN TİBBİ MÜAYİNƏSİ ZAMANI RƏHBƏR TUTULAN BEYNƏLXALQ QAYDALAR



***Qəzetimizin ötən nömrəsində "Dənizçilər poliklinikası" MMC-nin həkimi Adıgözəl Məmmədovun "Dənizçilərin tibbi müayinəsinin beynəlxalq tələbləri və differensial təhlil" adlı yazısı dərc olunmuşdu.***

Səh. 6

### YELKƏNLİ İDMAN FEDERASİYASININ KOMANDASI BEYNƏLXALQ YARIŞDA AZƏRBAYCANI TƏMSİL EDİB




*Azərbaycan Yelkənli İdman Federasiyasının (AYİF) komandası beynəlxalq yarışda 600-ə yaxın idmançı ilə mübarizə apararaq Azərbaycanı layiqincə təmsil edib.*

Səh. 8


## BAYRAM TƏBRİKİ

# NOVRUZ BİZİ YENİ ƏMƏK QƏLƏBƏLƏRİNƏ SƏSLƏYİR



Əziz həmkarlar!

Sizi - "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin bütün işçilərini gəlişi ilə qəlblərdə ən ülvi duyğular oyadan, könülləri qurub-yaratmaq əzmi ilə dolduran Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə xoş əhvali-ruhiyyə, möhkəm cansağlığı, səadət və Azərbaycanın tərəqqisi naminə fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Xalqımızın varlığını birlik, böyüklük və yaşam gücü ilə qidalandıran Novruz həm də nəciblik, xeyirxahlıq kimi yüksək mənəvi dəyərləri ilə insanları bir-birinə doğmalaşdırır.

Mənəviyyatımızın simvoluna çevrilən Novruzun taleyimizdəki yerini, bir xalq kimi milli dirçəlişimizdəki rolunu yüksək qiymətləndirən Ulu öndər Heydər Əliyev demişdir: "Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbiətin oyanışının, varlığın yenidən canlanmasının müjdəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri həyat və məişətimizə daxil olmuş, insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş etmişdir".

Tarix boyu zəhmət və halallıqla yaşayan və gəlişinə ruzi-bərəkət qapısının açılması kimi baxan xalqımız rəsmən yasaq edildiyi dövrlərdə belə, Novruzdan imtina etməmişdir. Möhtərəm Prezidentimiz İlham Əliyevin sözləri ilə desək: "Azərbaycan torpağında həmişə əziz tutulan bu bayramın verdiyi tükənməz mənəvi güc sayəsində biz yüz illərdən bəri keçmişimizin çətin və mürəkkəb dövrlərində nikbinliyimizi qoruyub saxlamış, gələcəyə daim ümidlə baxmışıq. Novruz ənənələrinin layiqincə yaşadılması Azərbaycan xalqının çoxəsrlik tariximiz qarşısında müstəsna xidmətidir. Ən ali bəşəri keyfiyyətləri özündə toplayan böyük mənəviyyat və hikmət xəzinəsi olaraq yaz bayramı tarixi-mədəni irsə bağlılığımızı parlaq nümayiş etdirir."

Ölkəmiz müstəqilliyinə yenidən qovuşduqdan sonra isə ulularımızın əvəzsiz yadigarı olan Novruz Azərbaycan Respublikasının rəsmi bayramlarından biri kimi həmişəlik təqvimə daxil olmuşdur. YUNESKO tərəfindən bəşəriyyətin mədəni irs nümunələri siyahısına daxil edilməsi isə insanlar arasında dostluq, qardaşlıq duyğularını gücləndirməklə, cəmiyyətdə əmin-amanlığın bərqərar olmasına zəmin yaradan Novruzun ən ali keyfiyyətləri özündə birləşdirdiyini bir daha təsdiq edir.

Novruz Azərbaycanın xoş gələcəyi, işıqlı sabahı və iqtisadi tərəqqisi naminə bizi yeni əmək qələbələrinə səsləyir.

Baharın gəlişindən sonra havaların əlverişli keçməsi isə ölkəmizin iqtisadi qüdrətinin artmasına sanballı töhfələr verən dənizçilərimizin də yükləri mənzil başına daha tez çatdırmaq, səfərləri daha uğurla başa vurmaq imkanlarını xeyli genişləndirir. Əminəm ki, dənizçilərimiz təbiətin yaratdığı bu imkandan həmişə olduğu kimi, bu dəfə də gündən-günə çiçəklənən müstəqil Azərbaycanımızın iqtisadi inkişafına daha sanballı əmək töhfələri vermək üçün yararlanarlar.

Əziz həmkarlar! Arzu edirəm ki, elliklə pişvazına çıxdığımız Novruz Odlar yurduna əbədi səadət, hər evə, hər ailəyə xoşbəxtlik gətirsin. Eviniz işıqlı, süfrələriniz bərəkətli, yolunuz açıq olsun!

***Rauf VƏLİYEV,***
*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri*

# GƏMİÇİLİK 779 QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜN AİLƏSİNƏ BAYRAM SOVQATI PAYLAYIB



***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin nümayəndələri Novruz bayramı ərəfəsində Gəmiçiliyin himayəsində olan qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdığı qəsəbələrə baş çəkiblər.***

Dənizçilər həmişə olduğu kimi, bu dəfə də əslən Xocalı, Kəlbəcər, Laçın, Ağdam, Şuşadan olan və Goranboy rayonunda müvəqqəti məskunlaşan 779 qaçqın və məcburi köçkün ailəsinə, ümumilikdə 3350 nəfərə zəruri ərzaq məhsullarından ibarət bayram sovqatı paylayıblar. Novruz süfrəsi açmaq üçün nəzərdə tutulan bayram sovqatı düyü, şəkər tozu, çay, un, yağ və digər ərzaq məhsullarından ibarət olub.

Qaçqın və məcburi köçkünlər adından çıxış edənlər onlara göstərilən daimi diqqət və qayğıya görə ölkə başçısına və "AXDG" QSC-nin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər, bayram arzularını dilə gətiriblər.

# UNESCO-DA NOVRUZ BAYRAMI TƏNTƏNƏ İLƏ QEYD EDİLİB

***Azərbaycan, Əfqanıstan, İran, İraq, Türkiyə, Türkmənistan, Qazaxıstan, Tacikistan, Hindistan və Pakistanın UNESCO yanındakı daimi nümayəndəliklərinin birgə təşkilatçılığı ilə bu qurumun mənzil-qərargahında Novruz bayramı təntənəli şəkildə qeyd edilib.***




Təntənəli mərasimdə təşkilat komitəsinin rəhbəri qismində İran İslam Respublikasının UNESCO yanındakı daimi nümayəndəsi Ə.Calali çıxış edərək Novruz bayramı və onun mənəvi əhəmiyyətindən danışıb.

Sonra UNESCO-nun baş direktorunun müavini Getaçyu Engida çıxış edərək təşkilatçı ölkələrin səfirlərini salamlayıb, tədbir iştirakçılarını qurumun baş direktoru Odri Azuleyin adından təbrik edib. Novruz bayramının sülh, həmrəylik kimi ümumbəşəri dəyərləri əks etdirdiyini, nəsildən nəsilə ötürülən milli mənsubiyyət nümunəsi olduğunu diqqətə çatdırıb. G.Engida Novruzu bəşəriyyət üçün önəmli bayramlardan biri kimi səciyyələndirib və UNESCO-da on ölkənin bu tədbiri birgə təşkil etməsinin möhkəm əməkdaşlıq nümunəsi olduğunu vurğulayıb.

Tədbir çərçivəsində təşkilatçı ölkələrin mədəniyyət nümayəndələri milli musiqi və rəqs nümunələri ifa ediblər.

Azərbaycan Respublikasının UNESCO yanındakı daimi nümayəndəliyinin rəhbəri, səfir Anar Kərimov qonaqlara ölkəmizdə Novruz bayramının keçirilməsi ənənələri haqqında məlumat verib.

Daha sonra təşkil olunan ziyafətdə milli təamlarımız təqdim olunub.




Xatırladaq ki, Novruz bayramı 2009-cu ildə UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilib.

Pakistanın UNESCO yanında daimi nümayəndəliyinin rəhbəri, səfir Moin Ul-Hague AZƏRTAC-a müsahibəsində belə mötəbər təşkilatda Novruz bayramı tədbirində iştirak etməkdən məmnun olduğunu bildirib. O deyib: "Novruz xoşbəxtlik, sevinc bayramıdır, insanları bir araya gətirir və baharın gəlişindən xəbər verir. Fürsətdən istifadə edərək, Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edirəm. Azərbaycan ilə Pakistanı sıx dostluq telləri bağlayır. Ölkələrimiz arasında yüksək səviyyədə möhkəm əlaqələr var. Azərbaycan xalqına, hökumətinə sülh və tərəqqi arzulayıram".

Serbiyanın UNESCO yanında daimi nümayəndəliyinin rəhbəri, səfir Darko Tanaskoviç artıq uzun illərdir Novruz bayramı tədbirlərində iştirak etdiyini bildirib. "Novruz bayramı qeyd olunan ölkələrdə səfir işləmişəm. Ona görə də bu bayram, onun ənənələri haqqında çox eşitmişəm.

Novruz təqvimə yeni bir normallıq gətirib. Təbiət bayramının bəşər təqviminə salınması vacibdir. Novruz təbiətin oyanışıdır. Ona görə də Yeni il əslində elə təbiətin oyanışı ilə - Novruzla başlamalıdır. Yanvar ayında Yeni il qeyd ediləndə təbiət yatmış olur, onun vaxtını gözləmək lazımdır. Həmin vaxt məhz Novruzdur. İnsan təbiətin hərəkətini izləməlidir. Yeni il təbiətin oyanışı ilə eyni vaxta düşməlidir", - deyə D. Tanaskoviç diqqətə çatdırıb.

***Şəhla Ağalarova***

## ÇİÇƏK GÖZLƏYİR

*Qapını kim döyər belə bir ərklə?*
*Yurduma, obama Bahar xoş gəlir.*
*Nişanlı qız kimi Bahardan bəlkə*
*Təbiət birinci çiçək gözləyir.*

***

*Dirilik libası geyinir hər yan,*
*Başlayır çiçəyin çəmənə nazı.*
*Xəta, uzaq dayan, şər, uzaq dayan,*
*Bahar ömrümüzə xoş günlər yazır.*

***

*Açılır torpağın donu, qırışı,*
*Açılır torpağın verən əli də.*
*Başlayır məhəbbət, sevgi yarışı,*
*Qızlar uzaq qaçsın necə "dəli"dən?*

***

*Boylanır üfüqdən günəş qürurlu,*
*Qaynayır içindən şaqraq bulaqlar.*
*Əlləri çəpərə çatmayan bağlar*
*İndi bir-birini rahat qucaqlar.*

***

*Zəfərlə bəzəyim gərək yurdumu,*
*İndi inamımız özü bir ordu.*
*Torpağı da gülsün, suyu da gülsün*
*Bu yazdan, bu gündən gərək bu yurdun.*

***

*Bənövşə həyadan büküb boynunu,*
*Qaranquş muştuluq almağa gəlib.*
*Mənə elə gəlir bu Bahar bizə*
*Əbədi, əbədi qalmağa gəlib.*

***Rasif İMANOĞLU***

# “İPƏK YOLU BİZİM ÜÇÜN ÇOX ÖNƏMLİDİR”

## BAKIDA ATƏT PARLAMENT ASSAMBLEYASININ İPƏK YOLUNA DƏSTƏK QRUPUNUN BEYNƏLXALQ KONFRANSI KEÇİRİLİB

***Martın 13-də Bakıda “İpək Yolu boyunca iqtisadi əməkdaşlıq və mədəni əlaqələrin inkişaf etdirilməsində parlamentlərin rolu” mövzusunda beynəlxalq konfrans keçirilib.***

Konfrans Azərbaycan Respublikası Milli Məclisi və ATƏT Parlament Assambleyasının (PA) İpək Yoluna Dəstək Qrupu tərəfindən təşkil edilib.

Tədbirdən əvvəl iştirakçılar Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər.

Konfransın moderatoru Milli Məclisin deputatı, ATƏT PA-nın vitse-prezidenti Azay Quliyev bildirib ki, konfrans çərçivəsində “Qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın və ticarət əlaqələrinin möhkəmləndirilməsi”, “Nəqliyyat və logistika prosedurlarının sadələşdirilməsi” və “Etimadın gücləndirilməsi, mədəni mübadilənin inkişafı və dialoqun təbliği” mövzularında panel iclaslar keçiriləcək.

Diqqətə çatdırılıb ki, ATƏT PA-da İpək Yoluna Dəstək Qrupu Azərbaycan tərəfinin təşəbbüsü ilə yaradılıb. Əgər qrup yaranan vaxt 17 ölkə onun üzvü idisə, bu gün üzvlərin sayı 22-yə çatıb. Bu da Avropa ölkələrinin Azərbaycanın təşəbbüsünə marağının göstəricisidir.

Milli Məclis sədrinin müavini, Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Bahar Muradova konfransda çıxış edərək deyib ki, dinamik inkişaf edən Azərbaycan bu gün regional və qlobal layihələrin reallaşmasında fəal iştirak edir. Ölkəmizin iştirakçısı olduğu və İpək Yolunun mühüm hissəsini təşkil edən Şərq-Qərb, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı üçün əməli addımlar atılır.














Bahar Muradova vurğulayıb ki, Azərbaycan İpək Yolu üzərində yerləşən əsas ölkələrdən biridir. Azərbaycan İpək Yolundan faydalanan ölkələrə imkanlar verən bir ölkə rolunu oynayır. Bu yolla bağlı həm Şərqdə, həm də Qərbdə fəaliyyət aparılır. Parlamentarilərin burada iştirak etmələri, bu layihə ətrafında fəaliyyət göstərmələri çox əhəmiyyətlidir. Azərbaycan İpək Yolunun bərpasına investisiya qoyan bir ölkədir.

Milli Məclis sədrinin müavini Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən nəhəng layihələr barədə məlumat verib. O, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin önəmi haqqında danışaraq bunun Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yol olduğunu deyib. Şimal-Cənub Nəqliyyat Dəhlizinin də Azərbaycanın iqtisadi inkişafına zəmanət vəd etdiyini deyən Bahar Muradova ölkəmizin coğrafi mövqeyinin dünya ölkələrinə böyük imkanlar yaratdığını vurğulayıb.

Bahar Muradova bildirib ki, Azərbaycanın İpək Yoluna Dəstək Qrupunun yaradılması təşəbbüsü ilə çıxış etməsi təsadüfi deyil. Azərbaycan bu təşəbbüsü irəli sürməyə mənəvi və siyasi haqqı olan ölkədir.

ATƏT Parlament Assambleyasının sədri Georgi Tsereteli Bakı konfransının mühüm əhəmiyyət kəsb etdiyini deyib. O, bu layihənin həyata keçirilməsi ideyası haqqında danışıb. Bildirib ki, bu ideya irəli sürüləndə bir çox ölkələr layihəni dəstəklədi və ona qoşulmaq qərarına gəldi. Bu layihə ölkələr arasında münasibətlərin daha da möhkəmlənməsində mühüm rol oynayacaq.

Georgi Tsereteli iqtisadi, humanitar sahələrin ATƏT üçün önəmli sahələr olduğunu deyib. Bildirib ki, ATƏT yaranan problemlərə qarşı çox fəal şəkildə mübarizə aparır. Buraya terrorizmə qarşı mübarizə, münaqişələr daxildir. Lakin iqtisadi əməkdaşlıq da çox vacibdir.

“İpək Yolu bizim üçün çox önəmlidir. İpək Yolu elə marşrutdur ki, bu yol boyunca əhali yaşayır. Bu marşrut üzrə vacib şəhərlər yerləşir. Bunlar xalqlarımızın inkişafı baxımından əhəmiyyət kəsb edən şəhərlərdir. Nəqliyyat infrastrukturunu müasirləşdirmək də əhəmiyyət kəsb edir. Bakı-Tbilisi-Qars dəmir yolunu buna gözəl misal kimi göstərmək olar. Ümumiyyətlə, hamımız üçün qarşımızda duran əsas prioritet iqtisadi sahədə müvəffəqiyyət əldə etməkdir”, - deyə ATƏT PA-nın sədri qeyd edib.

Monteneqro parlamentinin sədri İvan Brayoviç konfransın yüksək səviyyədə təşkil edildiyini bildirib. O, Azərbaycanda yüksək səviyyəli qonaqpərvərliyin şahidi olduğunu söyləyib. İpək Yolunun önəmindən danışan parlamentin sədri bunun Monteneqro üçün də mühüm əhəmiyyətə malik olduğunu vurğulayıb. “Tarix bizə öyrədir ki, körpüləri tikməzdən əvvəl insan öz daxilində də bir körpü yaratmalıdır. Bu da dostluq körpüsü olmalıdır. Əgər bir şəxs özündən başqa heç kimi tanımırsa, o, kasıb qalacaq. Bu, eynilə ölkələrə də aiddir. Monteneqro da bu layihədə önəmli yer tutur. İpək Yolunda iştirak etmək ölkəmiz üçün çox vacibdir. Bu, ən vacib layihələrdən biridir”, - deyə İvan Brayoviç bildirib.

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov deyib ki, səmərəli çoxmodullu nəqliyyat dəhlizlərinin qurulması yolu ilə ticarətin asanlaşdırılması və regiondaxili və transregional infrastruktur uzlaşması ATƏT məkanında davamlı iqtisadi artıma töhfə verə bilər və verəcək. Xüsusilə də ATƏT-in yaxşı idarəetmə və uzlaşma ilə bağlı Hamburq Nazirlər Şurası, o cümlədən nəqliyyatla bağlı bütün müvafiq ATƏT sənədləri və qərarları bu xüsusda əməkdaşlıq üçün faydalı çərçivəni təmin edir.

Nazir qeyd edib ki, Azərbaycanın Xarici İşlər Nazirliyi İpək Yoluna Dəstək Qrupunun yaradılmasını alqışlayır. Bu gün burada 22 iştirakçı dövlət var. Əlbəttə ki, bu rəqəm arta bilər. Bu qrup ticarət dəhlizlərinin möhkəmləndirilməsi məqsədilə əsas element kimi regional nəqliyyat infrastrukturu məsələlərində dialoq üçün platforma rolunu oynayır.

Elmar Məmmədyarov qeyd edib ki, son illər Azərbaycan region boyunca nəqliyyat infrastrukturlarına sərmayə qoymaqla və tikintisini həyata keçirməklə əhəmiyyətli addımlar atıb. Bununla yanaşı, regionlararası ticarət dəhlizlərini uğurla dəstəkləmək və inkişaf etdirmək məqsədilə ölkədə möhkəm davamlı siyasi və makroiqtisadi sabitliyə nail olmaq və inkişaf etdirmək zəruri idi. Bu xüsusda, Azərbaycan bir neçə il əvvəl neft və qaz sənayesində xarici şirkətlər üçün əlverişli, liberal investisiya mühitini təmin etməklə artıq özünü sübut edib.

Nazir bildirib ki, Azərbaycan dövlətlərarası dinc münasibətlər və iqtisadi əməkdaşlıq öhdəliyi ruhu ilə ticarət dəhlizlərini və nəqliyyat infrastruktur layihələrini təşviq edir. Bu məqsədlə biz, həmçinin inklüziv regional əməkdaşlığın siyasi və ticari cəhətdən zəruri arxitekturasını gücləndirmək üçün regional və subregional dövlətlərarası çərçivələr şəbəkəsini də yaratmışıq. Maneələrin aradan qaldırılması, regional və regionlararası layihələrdə müxtəliflik yaradılması Azərbaycanın ikitərəfli münasibətlərində və tərəf olduğu bütün beynəlxalq və regional iqtisadi təşkilatlarda önəm verdiyi istiqamətlərdən biridir.

Monqolustanın xarici işlər naziri Damdin Tsogtbatar bildirib ki, ölkəsi siyasi və iqtisadi cəhətdən İpək Yolu marşrutunu dəstəkləyir. Monqolustanın dənizə çıxışının olmaması və bu marşrutdan istifadə etməsi onun üçün yaxşı imkanlar yaradır. İpək Yolu, eyni zamanda, çox vacib bir mexanizmdir. Bu, bütövlükdə Avrasiya məkanında istifadə olunması üçün vacib bir marşrutdur.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin baş katibi Asəf Hacıyev çıxışında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin “Yol inkişaf və çiçəklənmə deməkdir” fikrini xatırladıb. O bildirib ki, bu baxımdan İpək Yolu mühüm önəm kəsb edir. Bu yol təkcə məhsulların daşınması baxımından vacib deyil, onun mənası daha genişdir.

Baş katib vurğulayıb ki, əgər 30-40 il bundan əvvəl ölkələrin inkişafı neftlə, qazla ölçülürdüsə, bu gün nəqliyyat, texnologiya ilə ölçülür.

TRACECA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin baş katibi Mirçea Çiopraqa TRACECA barədə məlumat verib. Bildirib ki, Avrasiya İpək Yolu ideyasının yenidən gündəmə gəlməsi Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi-TRACECA-da öz təzahürünü tapıb. TRACECA-nın məqsədi təkcə xüsusi iqtisadi maraqlarla məhdudlaşmır, o, həm də zəngin tarixin və mədəniyyətin gələcək üçün qorunub saxlanmasını təmin edir. TRACECA ərazisindən keçdiyi ölkələrin iqtisadi inkişafının ayrılmaz hissəsidir və eyni zamanda, qarşılıqlı inteqrasiya və səmərəli əməkdaşlıq üçün güclü bir alətdir.

Çinin Azərbaycandakı səfiri Vey Cinhua Bakı konfransının əhəmiyyətinə toxunub. O deyib ki, belə tədbirlərin keçirilməsi ölkələrin qarşılıqlı əlaqələrinin inkişafı üçün imkanlar yaradır. İpək Yolu marşrut xətti boyunca ölkələr arasında əlaqələrin genişlənməsinə mühüm töhfələr verə biləcək əhəmiyyətli bir layihədir.

Konfrans işini panel iclaslarla davam etdirib.

“Qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın və ticarət əlaqələrinin möhkəmləndirilməsi” mövzusunda birinci panel iclas Milli Məclis sədrinin müavini, Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Bahar Muradovanın moderatorluğu ilə keçib. Bahar Muradova qeyd edib ki, ölkələr arasında qarşılıqlı faydalı əməkdaşlığın, xüsusilə ticari əlaqələrin möhkəmləndirilməsi çox vacibdir. Bu istiqamətdə müxtəlif tədbirlər təşkil edilir, irimiqyaslı layihələr həyata keçirilir.

Panel iclasda çıxış edən iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov Azərbaycanın İpək Yolu layihəsinin həyata keçirilməsində həmişə fəal iştirak etdiyini söyləyib. Layihənin ölkəmizə məxsus hissəsinə investisiyalar yatırılıb. Görülən işlər ölkəmizin bu işə necə önəm verməsinin bariz nümunəsidir. Bakıda keçirilən bu beynəlxalq konfrans da bunun bir göstəricisidir. Belə nəhəng layihələr ölkələrə iqtisadi fayda verir. Azərbaycan bu kimi irimiqyaslı layihələrdə hər zaman uğurla iştirak edir.

Rumıniyanın ATƏT PA-dakı nümayəndə heyətinin üzvü, Assambleyanın vitse-prezidenti Viktor Paul Dobre iqtisadi əlaqələrin inkişafının ölkələr üçün prioritet məsələ olduğunu söyləyib. O, belə yanaşmanın ATƏT regionunda iqtisadi konsepsiya ilə bağlı olduğunu və bu konfransın məqsədlərinə uyğun gəldiyini vurğulayıb. Viktor Paul Dobre ölkəsinin müxtəlif layihələrlə bağlı əməkdaşlıqlara önəm verdiyini qeyd edib.

Belarusun ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Boleslav Pirştuk qeyd edib ki, sülh və təhlükəsizliyin qorunub saxlanması, sabitliyin davam etdirilməsi ümumi maraqlarımıza xidmət edir. İpək Yolu qarşılıqlı faydalı əməkdaşlığın və ticarət əlaqələrinin möhkəmləndirilməsi baxımından çox önəmlidir. Avrasiya məkanında əməkdaşlığın inkişafı üçün geniş imkanlar mövcuddur. Belarus Avrasiyada önəmli yer tutan bir ölkədir.

Avstriyanın ATƏT PA-dakı nümayəndə heyətinin üzvü Roman Hayder İpək Yolu ölkələri arasında qarşılıqlı faydalı əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində işlərin davam etdirilməsinin zəruriliyini qeyd edib. Bildirib ki, bu məsələ həmin ölkələrin iqtisadi sabitliyinə müsbət təsir göstərən əsas amillərdən biridir. Eyni zamanda, iqtisadi əlaqələrin möhkəmləndirilməsi xalqlar arasında demokratik dəyərlərə əsaslanan əlaqələr də yaradır.

“Nəqliyyat və logistika prosedurlarının sadələşdirilməsi” mövzusunda ikinci panel Serbiyanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Stefana Miladinoviçin moderatorluğu ilə keçib. Panel iclasda çıxış edən “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-nin baş direktoru Taleh Ziyadov, “Azərbaycan Dəmir yolları” QSC-nin sədr müavini Hicran Valehov, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin nümayəndəsi Tahir Məmmədov və digərləri çıxış edərək bildiriblər ki, ölkələrin beynəlxalq nəqliyyat sisteminə inteqrasiyası, infrastrukturun inkişafı, bu sahənin davamlı maliyyələşdirilməsi, xidmətin keyfiyyətinin artırılması, nəqliyyatdan istifadənin sadələşdirilməsi məsələlərinə önəm verilməlidir. Qeyd olunub ki, bununla bağlı bir sıra beynəlxalq layihələrə qoşulmaq üçün təşəbbüs göstərməlidir.

“Etimadın gücləndirilməsi, mədəni mübadilənin inkişafı və dialoqun təbliği” mövzusunda üçüncü panel iclas Avstriyanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbərinin müavini Reinhold Lopatkanın moderatorluğu ilə keçib.

Panel iclasda çıxış edən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev ölkəmizdə həyata keçirilən islahatlar barədə danışıb. O, Azərbaycanda belə beynəlxalq tədbirlərin keçirilməsinin heç də təsadüfi olmadığını deyib. Nazir Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən irimiqyaslı layihələrin ölkəmizin dünyada nüfuzunu daha da artırdığını vurğulayıb. Əbülfəs Qarayev, həmçinin vurğulayıb ki, bu cür beynəlxalq konfranslar ölkələr arasında etimadın gücləndirilməsi, mədəni mübadilənin inkişafı və dialoqun təbliği baxımından mühüm əhəmiyyət kəsb edir. O, Azərbaycanın mədəni əlaqələr, dini tolerantlıq baxımından digər ölkələr üçün nümunə olduğunu bildirib.

Moldovanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Sergey Sirbu, Bolqarıstanın təşkilatdakı nümayəndə heyətinin rəhbəri Desislava Atanasova və digərləri çıxış edərək ölkələr arasında qarşılıqlı dialoqa əsaslanan mədəni mübadilənin həyata keçirilməsinin önəmindən danışıblar.

Beynəlxalq konfransın yekununda Bakı Bəyannaməsi qəbul olunub.

## SƏFƏRDƏ OLAN DƏNİZÇİLƏRİMİZ DƏ SƏSVERMƏ HÜQUQLARINDAN İSTİFADƏ EDƏCƏKLƏR

***Aprelin 11-də ölkədə Prezident seçkiləri keçiriləcək.***

Həmin gün Xəzərdə və ya xarici sularda xidməti vəzifələrini yerinə yetirən dənizçilərimiz də səsvermə hüquqlarından istifadə edəcəklər. Onlar mövcud qanunvericiliyə uyğun gəmilərdə səs verəcəklər.

Səsvermə günü “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin gəmilərində səfərdə olan (üzən) Azərbaycan vətəndaşlarının səsvermə hüquqlarının təmini məqsədilə 29 saylı Səbail Seçki Dairəsi tərəfindən Gəmiçilikdə 35 saylı seçki məntəqəsi təşkil edilib. Məntəqənin fəaliyyəti üçün bütün lazımi şərait yaradılıb.



## MƏZAHİR PƏNAHOV: “ÜMUMİ MƏNZƏRƏDƏN GÖRÜNÜR Kİ, AZƏRBAYCAN İCTİMAİYYƏTİ SEÇKİ PROSESİNƏ FƏAL QOŞULUB”

***Azərbaycanın kifayət qədər seçki təcrübəsi var. Ona görə də aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə bağlı hər hansı problemin olacağı gözlənilmir. Bütün addımlar Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq atılır.***

Bu fikirləri Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov jurnalistlərə açıqlamasında bildirib.

MSK sədri qeyd edib ki, kütləvi informasiya vasitələri seçki prosesini, o cümlədən namizədlərin və səlahiyyətli nümayəndələrin seçkilərə nə qədər maraqlı olduğunu ictimaiyyətə düzgün və dolğun şəkildə çatdırır. Ümumi mənzərədən görünür ki, Azərbaycan ictimaiyyəti seçki prosesinə fəal qoşulub. Bütün seçicilərə tam imkan yaradılacaq ki, aprelin 11-də öz iradələrini ifadə etsinlər.

Martın 12-də saat 18.00-da namizədlərin müraciətləri ilə bağlı vaxtın başa çatdığını xatırladan MSK sədri Seçki Məcəlləsinə əsasən Komissiyanın daxil olan sənədlərə daha yeddi gün baxmaq hüququna malik olduğunu söyləyib. O bildirib ki, martın 19-da proses tam başa çatacaq. Bundan sonra namizədlərin seçkiqabağı təşviqat prosesinə start veriləcək.

# AZƏRBAYCANLA İRAN BÜTÜN SAHƏLƏRDƏ UĞURLA ƏMƏKDAŞLIQ EDİR

***İqtisadiyyat naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti 12-14 martda İran İslam Respublikasında səfərdə olub.***

Səfərin ilk günü nazir Şahin Mustafayev İran İslam Respublikasının İqtisadi işlər və maliyyə naziri, Dövlət Komissiyasının həmsədri Məsud Kərbasian ilə görüşüb.

Görüşdə nazir Şahin Mustafayev Azərbaycan və İran arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu, əməkdaşlığın inkişaf etdiyini, əlaqələrin genişlənməsində Azərbaycan və İran prezidentlərinin siyasi iradəsini və birgə səylərini vurğulayıb. Bildirilib ki, son illərdə ölkələrimiz arasında əlaqələr yeni mərhələyə qədəm qoyub. Son 4 ildə Azərbaycan və İran dövlət başçılarının 10 görüşü keçirilib,100-dən çox qarşılıqlı səfər həyata keçirilib, 40-dan artıq sənəd imzalanıb. Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyası intensiv iş aparır.

Ticarət, sənaye, nəqliyyat-tranzit, maliyyə, səhiyyə və digər sahələrdə mövcud əlaqələrə və əməkdaşlığın genişləndirilməsinə dair fikirlərini bildirən Şahin Mustafayev qeyd edib ki, ölkələrimiz arasında ticarət dövriyyəsi 2017-ci ildə 16 faiz artıb. İran Azərbaycana 3,1 milyard ABŞ dolları investisiya yatırıb. Azərbaycanda sənaye, tikinti, xidmət, rabitə, ticarət, nəqliyyat, kənd təsərrüfatı sahələrində 700-dən çox İran şirkəti qeydiyyatdan keçib.

Azərbaycan-İran əməkdaşlığının mühüm istiqamətlərindən olan "Şimal-Cənub" nəqliyyat dəhlizi üzrə işlər intensiv şəkildə aparılır. Azərbaycanda 8,3 kilometr, İranda 1,4 kilometr dəmir yolu, Astara çayı üzərində dəmir yolu körpüsü istismara hazırdır və artıq sınaq qatarlarının hərəkəti həyata keçirilib. Astarada (İran) terminalın təməlinin qoyulması və məhsul anbarlarının tikintisi nəzərdə tutulur. "Şimal-Cənub" nəqliyyat dəhlizinin tərkib hissəsi olan Rəşt-Astara dəmir yolu xəttinin tikintisinin maliyyələşdirilməsinə dair müzakirələr davam edir. 2017-ci ildə Rusiyadan İrana və əks istiqamətdə Azərbaycandan19 mindən çox TIR keçib, İranda milli daşıyıcılarımızın çəkisi isə 23,2 faiz artıb.

İran İslam Respublikasının İqtisadi işlər və maliyyə naziri, Dövlət Komissiyasının həmsədri Məsud Kərbasian qeyd edib ki, müstəqil Azərbaycan ilə İranın əlaqələri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrdən başlayıb və Heydər Əliyevin o dövrdə İrana səfəri ölkələrimiz arasında münasibətlərin inkişafının əsasını yaradıb. Qeyd olunub ki, son zamanlar ölkələrimiz arasında əməkdaşlığın inkişafı istiqamətində mühüm işlər görülüb, bir sıra qarşılıqlı səfərlər və görüşlər keçirilib. Məsud Kərbasian Azərbaycan nümayəndə heyətinin İrana növbəti səfərinin də əlaqələrin inkişafına töhfə verəcəyinə əminliyini vurğulayıb, sərhəd-keçid məntəqələrində iş rejiminin uzadılmasına, kənd təsərrüfatı, maliyyə və bank, səhiyyə sahələrində əməkdaşlığa dair fikirlərini diqqətə çatdırıb. İranlı nazir Qəzvin-Rəşt dəmir yolu xəttinin önəmini qeyd edərək, dəmir yolunun yaxın zamanlarda istifadəyə veriləcəyini bildirib.

Şahin Mustafayev İranın neft naziri Bijan Namdar Zəngənə ilə görüşüb. Görüşdə Azərbaycan və İranın neft-qaz sahəsində əlaqələri və bu sahədə mövcud potensialdan istifadə olunmaqla əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə edilib. Nazir Şahin Mustafayev ölkəmizin təşəbbüsü və fəal iştirakı ilə reallaşan dünya əhəmiyyətli iri neft-qaz layihələri, o cümlədən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Cənub Qaz Dəhlizi barədə geniş məlumat verib və qeyd edib ki, İran tərəfindən Azərbaycana ümumilikdə 3,1 milyard ABŞ dolları investisiya yatırılıb ki, bunun da 2,95 milyard dolları neft sektoruna qoyulub. Neft-qaz sahəsində Azərbaycan və İran şirkətlərinin fəaliyyətini qeyd edən iqtisadiyyat naziri təbii qaz mübadiləsi və yeraltı qaz anbarlarından istifadə imkanları, Xəzər dənizində yataqların birgə işlənməsi, neft-qaz maşınqayırması avadanlıqlarının Azərbaycanda birgə istehsalı, neft-kimya sahəsində əməkdaşlıq və s. məsələlərə dair fikirlərini bildirib.



Martın 13-də Tehranda Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının 12-ci iclası keçirilib.

İclasda çıxış edən Azərbaycanın iqtisadiyyat naziri, Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev qeyd edib ki, Azərbaycan-İran əlaqələri ortaq dinə, tarixə və adət-ənənələrə əsaslanır və xalqlarımızı sıx əlaqələr birləşdirir. Dövlət başçılarının siyasi iradəsi nəticəsində son 4 ildə Azərbaycan-İran əlaqələri xüsusilə inkişaf edib və yeni mərhələyə qədəm qoyub.

Əməkdaşlığın genişləndirilməsi perspektivlərinə gəlincə, nazir Şahin Mustafayev diqqətə çatdırıb ki, kənd təsərrüfatı, sənaye, ticarət, nəqliyyat, turizm, səhiyyə, bankçılıq və s. sahələrdə əməkdaşlıq üçün böyük imkanlar var. Azərbaycanda İranla birgə avtobuslar, kənd təsərrüfatı texnikası istehsal edilə bilər.

İran İslam Respublikasının İqtisadi işlər və maliyyə naziri, Dövlət Komissiyasının həmsədri Məsud Kərbasian ölkəsinin Azərbaycanla əlaqələrin genişlənməsinə xüsusi önəm verdiyini, son illərdə Azərbaycan-İran əlaqələrinin yüksək səviyyəyə çatdığını qeyd edib. Məsud Kərbasian hər iki ölkənin dövlət başçısının İran-Azərbaycan əlaqələrinin inkişafına və Dövlət Komissiyasının işinə dəstək göstərdiyini vurğulayıb. Bildirilib ki, Azərbaycan-İran Dövlət Komissiyasının fəaliyyəti digər ölkələrlə olan komissiyalarla müqayisədə bütün sahələri əhatə edir. İranlı nazir qeyd edib ki, ölkələrimiz arasında ticarət dövriyyəsinin artması müsbət haldır. Bundan başqa, kənd təsərrüfatı, turizm, tranzit və yükdaşımalar sahələrində də əlaqələrin inkişafı üçün potensial böyükdür.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının 12-ci iclası çərçivəsində iqtisadiyyatın müxtəlif sahələrində Azərbaycan-İran iqtisadi əməkdaşlığına, ölkələrimiz arasında birgə həyata keçirilən layihələrə, ticarət əlaqələrinin genişləndirilməsinə dair müzakirələr aparılıb.

Şahin Mustafayevin İranın səhiyyə, müalicə və tibb təhsili naziri Həsən Qazizadə Haşimi ilə görüşündə ölkələrimiz arasında əməkdaşlığın digər sahələrlə yanaşı, səhiyyə sahəsində də uğurla inkişaf etdiyi vurğulanıb, bu sahədə əlaqələrin genişləndirilməsi perspektivləri müzakirə edilib. Görüşdə Azərbaycanda birgə dərman istehsalı, müalicə işinin birgə təşkili, səhiyyə sahəsində birgə elmi tədqiqatların aparılması, tibbi kadrların hazırlanması, İranın Azərbaycanda özəl xəstəxanalardan birini icarəyə götürməsi və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.



Martın 13-də İran İslam Respublikasının Prezidenti Həsən Ruhani bu ölkədə səfərdə olan Azərbaycanın iqtisadiyyat naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayevi qəbul edib.

İran Prezidenti ölkələrimiz arasında tarixi dostluq münasibətlərini vurğulayaraq, siyasi, iqtisadi və mədəni əlaqələrimizin yüksələn xətlə inkişaf etdiyini, İranın Azərbaycanla əlaqələrin genişləndirilməsinə önəm verdiyini qeyd edib. Azərbaycan və İran arasında əlaqələrin daha da inkişafı üçün geniş potensialın olduğunu bildirən Həsən Ruhani nəqliyyat, enerji, investisiya qoyuluşu sahəsində əməkdaşlığın daha da genişlənməsinə, Azərbaycana nəzərdə tutulan səfərinə dair fikirlərini bölüşüb. İran Prezidenti salamlarını Azərbaycan Respublikasının Prezidentinə çatdırmağı xahiş edib.

İqtisadiyyat naziri Şahin Mustafayev səmimi qəbula görə təşəkkürünü bildirib və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını İran Prezidentinə çatdırıb. Şahin Mustafayev Azərbaycan və İran prezidentlərinin siyasi iradəsi və dostluq münasibətlərinin əməkdaşlığın inkişafı üçün möhkəm zəmin yaratdığını, son 4 ildə dövlət başçılarının yüksək səviyyəli 10 görüşünün keçirildiyini vurğulayıb. Qeyd edilib ki, Azərbaycan İranla əlaqələrə xüsusi əhəmiyyət verir və İranın uğurları Azərbaycanı sevindirir. Azərbaycan-İran əməkdaşlığı bütün sahələrdə, o cümlədən iqtisadi sahədə inkişaf edir. Hazırda ölkələrimiz sənaye, ticarət, energetika, nəqliyyat-tranzit və digər sahələrdə uğurla əməkdaşlıq edir, ticarət dövriyyəsi artır, işgüzar dairələr səmərəli əməkdaşlıq edir, avtomobil istehsalı və əczaçılıq sahələrində birgə layihələr reallaşdırılır, Azərbaycan və İranın tranzit potensialının reallaşdırılmasında mühüm əhəmiyyət kəsb edən Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi üzrə işlər davam etdirilir.



Nazir Şahin Mustafayev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tutduğu ədalətli mövqeyə və ərazi bütövlüyümüzü dəstəklədiyinə görə İran tərəfinə bir daha təşəkkür edib.

Şahin Mustafayev İranın sənaye, mədən və ticarət naziri Məhəmməd Şəriyətmadəri ilə görüşüb. Görüşdə nazir Şahin Mustafayev Azərbaycan və İran xalqlarının tarixən yaxın olduğunu, dövlət başçılarının əlaqələrin inkişafına xüsusi önəm verdiklərini vurğulayıb. Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının tərkibinin geniş olması da əlaqələrimizin yüksək səviyyədə olmasından xəbər verir. Şahin Mustafayev "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafında hər iki ölkənin rolunu qeyd edərək, nəqliyyat dəhlizinin Avropa ilə Asiyanı birləşdirəcəyini vurğulayıb. Azərbaycan və İranın səmərəli iqtisadi əməkdaşlığında Neftçalada avtomobil zavodunun rolunu qeyd edən iqtisadiyyat naziri ildə 10 min avtomobil istehsal etmək gücündə olacaq müəssisənin ölkələrimizin iqtisadiyyatına töhfə verəcəyini vurğulayıb. Bununla yanaşı, İranla birgə Azərbaycanda avtobus və kənd təsərrüfatı texnikası istehsal edən müəssisənin yaradıla biləcəyini, bu istiqamətdə danışıqların davam etdirildiyi bildirilib.

İranın sənaye, mədən və ticarət naziri Məhəmməd Şəriyətmadəri 90-cı illərdə Bakıda səfərdə olduğunu xatırlayaraq, ötən müddət ərzində Azərbaycanın çox dəyişdiyini və inkişaf etdiyini, ölkəmizin uğurlarının İranı sevindirdiyini vurğulayıb. Məhəmməd Şəriyətmadəri bildirib ki, İran Prezidentinin Azərbaycana səfəri zamanı dövlət başçısını müşayiət edəcək və ölkəmizin inkişafını əyani surətdə görmək imkanı olacaq. İranlı nazir, həmçinin Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının tərkibində sənaye komitəsinin yaradılmasını təklif edib, bunun müvafiq sahədə əlaqələrin inkişafında əhəmiyyətli olacağını vurğulayıb.



İqtisadiyyat naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev İrana səfəri zamanı Prezident Aparatının rəhbəri Mahmud Vaezi ilə görüşüb.

Görüşdə Azərbaycan nümayəndə heyətinin İrana səfərindən məmnunluq ifadə edilib, səfərin ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin genişləndirilməsinə müsbət töhfə verəcəyi vurğulanıb, Azərbaycan-İran iqtisadi əlaqələrinə və İran Prezidentinin Azərbaycana nəzərdə tutulan səfərinə dair fikir mübadiləsi aparılıb, sənaye, kənd təsərrüfatı, ticarət, nəqliyyat-tranzit, səhiyyə və s. sahələrdə əlaqələrin genişləndirilməsi üçün böyük potensialın olduğu qeyd edilib.

Vurğulanıb ki, Azərbaycan və İran prezidentləri uğurlu xarici siyasət apararaq regionda dostluğu və mehriban qonşuluğu əsas tuturlar. Dövlət başçılarının səyləri nəticəsində Azərbaycan və İran beynəlxalq əhəmiyyətli layihələrin reallaşmasında fəal iştirak edir və bu layihələr ölkələrimizin iqtisadi inkişafına töhfə verməklə yanaşı, digər ölkələrə də fayda verəcək.

Martın 14-də Tehranda Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının 12-ci iclasının yekunlarına dair Anlaşma Memorandumu imzalanıb.

Sənədi Dövlət Komissiyasının həmsədrləri - Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayev və İran İslam Respublikasının iqtisadi işlər və maliyyə naziri Məsud Kərbasian imzalayıblar.

Anlaşma Memorandumunda iqtisadiyyat, ticarət, sahibkarlıq, sənaye, kənd təsərrüfatı, bankçılıq, nəqliyyat, rabitə və yüksək texnologiyalar, energetika, gömrük və sərhəd, su və ətraf mühit, idman və gənclər, elm və təhsil, səhiyyə, mədəniyyət və turizm və s. sahələr üzrə əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulur.

Sənəddə Azərbaycan və İran arasında ikitərəfli əlaqələrin ölkələrin ərazi bütövlüyü və suverenliyinə hörmət prinsipləri daxil olmaqla, beynəlxalq hüququn fundamental norma və prinsiplərinə əsaslandığı bir daha vurğulanıb, hər iki ölkənin fiziki və hüquqi şəxslərinin fəaliyyətləri ni bu prinsiplərə və milli qanunvericiliyə uyğun olaraq təmin etməsi əksini tapıb.

***Rabil Kətanov***

# SLAVKUV-ASTARA MARŞRUTU ÜZRƏ İLK SINAQ KONTEYNER QATARININ GÖNDƏRİLMƏSİ MƏSƏLƏSİ MÜZAKİRƏ EDİLİB

***Polşa Respublikasının paytaxtı Varşavada "Cənub-Qərb" Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafı üzrə Koordinasiya Komitəsinin yığıncağı keçirilib.***

"Azərbaycan Dəmir Yolları" QSC-nin ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, tədbirdə Azərbaycan, İran, Gürcüstan, Ukrayna dəmir yollarının nümayəndə heyətləri iştirak ediblər. Ölkəmizi "Azərbaycan Dəmir Yolları" QSC-nin sədr müavini İqbal Hüseynovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.




Koordinasiya Komitəsinin yığıncağında Ukrayna tərəfinin son dəyişikliklərini nəzərə alaraq, 2018-ci il üçün "Cənub-Qərb" marşrutundakı xüsusi heyət üçün istifadə olunan vaqon və konteynerlərdə yüklərin daşınmasına dair tariflərin nəzərdən keçirilməsi, Slavkuv-Astara (İran) marşrutu üzrə ilk test konteyner (blok) qatarının göndərilməsi, universal heyətlə yüklərin (taxıl, bitki mənşəli yağlar, metal məmulatları, tikinti materialları, polietilen, polipropilen, filiz, bitum, şüşə, tomat pastası, quru meyvələr və sair) daşınmasına dair kompleks tariflərinin nəzərdən keçirilməsi, 2018-ci il üçün "Cənub-Qərb" marşrutu üzrə universal və xüsusi konteynerlərdə təhlükəli yük daşınmasının müzakirəsi və razılaşdırılması, Astara (İran) stansiyasının istismara verilməsindən sonra, Azərbaycan və İrana yükdaşıma tariflərinin Azərbaycan və İran tərəfindən yenidən nəzərdən keçirilməsi və təsdiq edilməsi məsələləri müzakirə olunub. Həmçinin "Cənub-Qərb" marşrutunun dəniz hissəsində (Qara dənizdə) tarif şərtlərinin optimallaşdırmasına dair əldə edilmiş nəticələrin Ukrayna və Gürcüstan tərəflərinə təqdim edilməsi, Azərbaycan, Gürcüstan, İran və Polşa tərəfləri arasında (ay ərzində bir blok-qatardan artıq olmaması şərtilə) boş konteyner və boş platformaların daşınma ödənişindən azad edilməsi məsələsinin nəzərdən keçirilməsi, bu məsələ üzrə Ukrayna tərəfinin yekun qərarının İşçi qrupuna açıqlanması, kompleks tariflərinin yerləşdirilməsi haqqında Azərbaycan tərəfinin məlumatının marşrutun veb-səhifəsində, həmçinin marşrut iştirakçılarına təqdim edilməsi və digər strateji əhəmiyyətli məsələlər də müzakirə mövzusu olub.

Tərəflər, müzakirə olunan məsələlərin "Cənub-Qərb" beynəlxalq nəqliyyat marşrutunun inkişafına, tranzit potensialının artırılmasına və əlavə yüklərin cəlb edilməsinə xidmət göstərəcəyini bildiriblər.

Sonra yığıncağın protokolunun imzalanması mərasimi keçirilib.

Tədbir çərçivəsində dəmir yolu administrasiyalarının təqdimatları (mövcud potensial və imkanlar, planlar) olub, eyni zamanda, potensial müştəri və ekspeditor şirkətləri ilə işgüzar görüşlər də baş tutub.

Xatırladaq ki, "Cənub-Qərb" Beynəlxalq Nəqliyyat Marşrutu Avropa İttifaqı ilə Hindistan arasında yüklərin daşınmasına hesablanıb. Dəhliz İran, Azərbaycan, Gürcüstan, Ukrayna vasitəsilə Hindistandan Avropaya və əks istiqamətdə yüklərin daşınmasında vaxt itkisini azaldır. İlkin hesablamalara əsasən bu dəhliz üzrə yükdaşımaları 7 gün ərzində həyata keçirmək mümkün olacaq. Alternativ marşrutlarda çatdırılma vaxtı 35-37 gün təşkil edir.

# BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARI SƏNGƏÇAL NEFT TERMİNALI İLƏ TANIŞ OLUBLAR

***ATƏT Parlament Assambleyasının İpək Yoluna Dəstək Qrupunun Bakıda keçirilən "İpək Yolu boyunca iqtisadi əməkdaşlıq və mədəni əlaqələrin inkişaf etdirilməsində parlamentlərin rolu" mövzusunda beynəlxalq konfransının iştirakçıları martın 14-də Səngəçal neft terminalı və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksi ilə tanış olublar.***



Qonaqlara Azərbaycanın "Şahdəniz-2" yatağından hasil olunacaq qazın Avropaya nəqlini nəzərdə tutan Cənub Qaz Dəhlizi, terminal və Xəzər Enerji Mərkəzi, həmçinin Azərbaycanın neft və qaz hasilatının tarixi barədə ətraflı məlumat verilib.

Konfrans iştirakçıları Səngəçal terminalının ərazisi ilə də tanış olublar. Məlumat verilib ki, Səngəçal terminalı Azərbaycanın neft və qaz sənayesinin döyünən ürəyi hesab edilir. Terminal Azərbaycanın Xəzər dənizindəki yataqlarından hasil edilən xam neftin və qazın qəbul edildiyi, emal olunduğu, saxlandığı və ixrac edildiyi məkandır. Səngəçal terminalı öz neft və qaz ixrac sistemləri ilə birlikdə Azərbaycanı Avropa ilə Asiyanın kəsişməsində mühüm bir qovuşuğuna çevirir.

Sonra qonaqlar Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksi ilə tanış olublar. Qeyd edilib ki, Azərbaycanın regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevrilməsi siyasətinin tərkib hissəsi olan, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin qovuşuğunda yerləşən yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi ölkənin tranzit imkanlarının genişləndirilməsində həlledici və mühüm rola malikdir. Layihənin həyata keçirilməsinə Prezident İlham Əliyevin 2007-ci ildə imzaladığı Sərəncamla başlanılıb. Yeni limanın məhz Ələt qəsəbəsində inşası təsadüfi deyil. Bu ərazi Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinin Azərbaycan seqmentləri olan avtomobil və dəmir yolu xətlərinin kəsişməsində yerləşir və yeni limanın inşası ilə buraya su magistrallarının da əlavə edilməsi, mahiyyət etibarilə, bu ərazinin mühüm nəqliyyat qovşağına və yeni geniş logistik məkana çevrilməsinə imkan yaradır.





## BUGÜNÜN ŞAGİRDLƏRİ ARASINDA SABAHIN DƏNİZÇİLƏRİ DƏ AZ DEYİL

***2018/2019-cu tədris ili üçün Azərbaycan Dövlət Dəniz Akademiyasına tələbə qəbulu prosesinə hazırlıq məqsədi ilə həm paytaxt, həm də respublikanın müxtəlif regionlarında yerləşən orta məktəblərdə ənənəvi təbliğat-tanıtım kampaniyası keçirilib.***

Bu məqsədlə Akademiyanın bir qrup professor-müəllim heyəti müxtəlif rayon məktəblərinə ezam olunub.

Görüşlər məktəb direktorlarının yaxından köməkliyi ilə keçirilib. Məktəblərin X-XI sinif şagirdlərinə Azərbaycan Dövlət Dəniz Akademiyasının tarixi, onun keçdiyi inkişaf yolu, təhsilin hazırki səviyyəsi, üstünlükləri, tələbə-gənclər üçün yaradılan geniş imkanlar barədə ətraflı məlumat verilib. Şagirdlər gələcəkdə perspektivli karyera qurmaq üçün Azərbaycan Dövlət Dəniz Akademiyasında təhsil almağa dəvət olunublar.

Böyük maraq doğuran görüşlər zamanı şagirdlərin çoxsaylı sualları ADDA-nın müəllimləri tərəfindən ətraflı cavablandırılıb.

Təcrübə göstərir ki, bu sahədə təbliğata böyük zərurət var. Yaxşı oxuyan şagirdlərdə dənizçi peşəsinə oyadılan maraq, onların gələcəkdə ADDA-nın tələbələri olacaqlarına ümidi artırır.




## HƏMKARLARI QOCAMAN DƏNİZÇİNİN BAYRAM SEVİNCİNƏ SEVİNC QATDILAR



***Novruzun üçüncü çərşənbəsi olan Yel çərşənbəsində həmkarları qocaman dənizçini evində ziyarət etməklə sevindiriblər.***

Belə ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Xəzər Dəniz Neft Donanmasının Həmkarlar İttifaqı Komitəsinin sədri Musa Musayev, XDND rəisinin köməkçisi Nazim Əliyev, hamiyəçi kapitan Xıdır Əliverdiyev və Donanmanın Sosial inkişaf qrupunun rəhbəri Şamil Əhmədov qocaman kapitan Aslan Əliyevin qonağı olublar.

Kapitan qonaqların sürpriz gəlişinə sevindiyini gizlətməyib: "Unudulmamaq insana xoş təsir bağışlayır. Bayram günü mənə hədsiz sevinc bəxş etdiniz. Hər birinizə, xüsusilə bu ənənənin təşəbbüskarlarına təşəkkürümü bildirirəm".





Həmkarları ilə səmimi söhbət əsnasında Aslan Əliyev dəniz üçün darıxdığını deyib: "Dəniz sevgisi başqadır. Onu sözlə ifadə etmək çox çətindir. Artıq iki ilə yaxındır ki, təqaüddəyəm. Demək olar, hər gün yuxuda dənizi və üzdüyüm gəmiləri görürəm".

Həmkarları ona "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəhbəri Rauf Vəliyev başda olmaqla, bütün dənizçilərin salamlarını və xoş sözlərini çatdırıb, cansağlığı, uzun ömür arzulayıblar.

1952-ci ildə Kürdəmirdə anadan olan Aslan Əliyev əmək fəaliyyətinə 1974-cü ildə Xəzər Dəniz Gəmiçiliyinin "Matfeyev" tankerində başlayıb. 1995-ci ildən Xəzər Dəniz Neft Donanmasında işləyən Aslan Əliyev kapitan vəzifəsinədək yüksəlib.



## BEYNƏLXALQ ÇAYLAR GÜNÜ

***14 mart - Beynəlxalq Çaylar Günü və ya Çaylar üçün Beynəlxalq Hərəkat Günü 1998-ci ildə təsis edilib. Bu gün dünyada Bəndlər əleyhinə Beynəlxalq Fəaliyyət Günü kimi də tanınır.***






Bu günün qeyd edilməsi təşəbbüsü ilk dəfə ABŞ-ın Kaliforniya ştatında yerləşən "Beynəlxalq Çaylar" ekoloji təşkilatı tərəfindən irəli sürülüb.

Beynəlxalq Çaylar Günü su hövzələri, dağıdıcı layihələr, sağlamlıq və dayanıqlı inkişaf haqqında cəmiyyətin maarifləndirilməsi məqsədi daşıyır. Hər il bu günlə əlaqədar müxtəlif tədbirlər və aksiyalar keçirilir. Fəalların çay hövzələrində ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində atdığı addımlar sırasında ABŞ-da 60 metr hündürlüyündə iki bəndin sökülməsini və İsveçdə 15 metrdən hündür bəndin tikilməsinə qadağa qoyulması haqqında qanunun qəbul edilməsini nümunə göstərmək olar.

Azərbaycan Respublikanın çay şəbəkəsi 8350-dən çox çaydan ibarətdir ki, bunlardan 2 çayın uzunluğu 500 kilometrdən çox, 22 çayın uzunluğu 101-500 kilometr, 324 çayın uzunluğu 11-100 kilometr arasında dəyişir, əksər çayların uzunluğu isə 10 kilometrdən azdır. Respublika çayları, ümumiyyətlə, Xəzər dənizi hövzəsinə aiddir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti çaylarda sululuq, Ətraf Mühitin Monitorinqi Departamenti çirklənmə vəziyyətini öyrənir. Ətraf Mühitin Mühafizəsi Departamenti isə hüquqi və fiziki şəxslərin su hövzələrinin mühafizəsi sahəsində yol verdikləri qanun pozuntularına uyğun olaraq tədbirlər görür.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ HÖKUMƏTİNİN FƏALİYYƏTİNDƏ HƏRBİ DƏNİZ ASPEKTLƏRİ

*(Əvvəli ötən sayımızda)*

Hökumət şimaldan real təhlükəni nəzərə alaraq, hərbi-strateji əhəmiyyətə malik Bakı sahillərinin müdafiəsinə xüsusi diqqət yetirirdi. 1919-cu ilin avqustunda Baş Qərargah rəisi, general-leytenant M.A.Sulkeviç tərtib etdiyi gizli məruzədə hərbi nazir S.S.Mehmandarova bildirirdi ki, Azərbaycan üçün Xəzər dənizində çox ciddi xoşagəlməz vəziyyət yaranıb. Yəni, Bakının başının üstünü iki güclü təhlükə almışdı: bir tərəfdən Zakaspidən və Həştərxandan bolşevik, digər tərəfdən isə Port-Petrovskdan ağqvardiyaçılar ölkəni təhdid edirdi.

Bakı dəniz tərəfdən tamamilə açıq olduğundan generalın fikrincə, "hər an hətta ölkə rəhbərliyinin yerləşdiyi rayona desant çıxarılmasını gözləmək olar". Bununla əlaqədar müvafiq tədbirlər görülməsini təklif edən general bildirirdi ki, dənizin müşahidəsini təşkil etmək, Bakıya dəniz tərəfdən giriş yollarının artilleriya müdafiəsini hazırlamaq və nəhayət, dəniz polisi və liman keşikçi gəmisi təşkil etmək lazımdır. Məruzədə, həmçinin sahil mühafizəsini və dəniz kəşfiyyatını təşkil etmək üçün də konkret tədbirlər görülməsi əksini tapmışdı. Nəzərə almaq lazımdır ki, həmin vaxtda Azərbaycanın hərbi gəmiləri yox idi, ancaq dəniz kəşfiyyatı üçün şəxsi heyəti azərbaycanlılardan ibarət olan iki paroxodun top və pulemyotlarla silahlandırılaraq istifadə olunması təklif edilirdi. Bundan başqa, müdafiə məqsədilə bir neçə barkas və mühərrikli qayıqdan istifadə edilməsi də təklif olunmuşdu. General Sulkeviçin fikrincə, bu bütün sahil zonasına Mixaylovkadan (Aşağı körpüdən) başlayaraq Bəndovana, əgər imkan olarsa, hətta Astaraya qədər nəzarət etməyə imkan verərdi.

Bakı sahillərinin təbii mövqeyini nəzərə alaraq Şıxov burnunda, Nargin adasında və Sultan (Zığ) burnunda artilleriya qurğuları sistemlərini yerləşdirmək yolu ilə paytaxtın sahildən səmərəli müdafiə sistemini yaratmaq olardı. Bu mövqelərdən çarpaz artilleriya atəşi Bakı körfəzinə və sonra limana dənizdən girişi bağlamağa imkan verirdi.

1919-cu il sentyabrın 13-də S.Mehmandarov Baş nazir N.Usubbəyova artilleriya və mühəndis işləri baxımından görülən tədbirlər haqqında məruzə etmişdi: "1. Əvvəlki səngərlər təzələnir; 2. Məftil maneələr düzəldilir; 3. Bakı körfəzinə girişi bağlayan batareyalar üçün yer seçilmişdir; 4. 1915-1916-cı illərdəki telefon əlaqəsi bərpa olunur".

Hərbi nazir Bakı möhkəmləndirilmiş rayonunun rəisi vəzifəsinin təsis olunmasını təklif edir ki, Bakının müdafiəsini təşkil etmək işləri bir əldə cəmləşdirilsin və o, Bakı hərbi general-qubernatoru vəzifəsilə əvəz edilsin. Dövlət Müdafiə Komitəsinin qərarı ilə həmin gün bu iş görüldü.

Elə həmin gün S.Mehmandarovun imzaladığı əmrlə Bakı möhkəmləndirilmiş rayonuna strateji əhəmiyyətinə görə birinci dərəcəli qala statusu verildi. Rayonun sərhədi Xəzər dənizinin sahili boyu Qızılburundan tutmuş Ələtə qədər müəyyən edilmişdi. Xəzər dənizi sahili boyunca yerləşən hərbi liman üzən vasitələr, bütün artilleriya hissələri, həmçinin qarnizonun qoşun və idarələri möhkəmləndirilmiş rayonun rəisinə tabe edilmişdi.

Sentyabrın 16-da Dövlət Müdafiə Komitəsi tərəfindən Bakı möhkəmləndirilmiş rayonun rəisinə "ölkənin müdafiəsi üçün zəruri olan hər cür əşyaları müsadirə etmək" hüququ verilmişdi. Oktyabrın 26-da şəhərin hüquq mühafizə orqanları da onun tabeliyinə verilmişdi. Bakı möhkəmləndirilmiş rayonunun rəisi, general-mayor Murad Gəray Tlexas, qərargah rəisi isə polkovnik İ.Hacıbəyli təyin olunmuşdular.



1919-cu ilin oktyabrında Bakı möhkəmləndirilmiş rayonunda müdafiə işləri yüksək templə gedirdi. Nargin adası və Şıxov burnunda əlaqə yolları, həmçinin toplar üçün meydança və müşahidə məntəqələri hazırlanmışdı. Bütövlükdə Nargin adasının ya qalaya, ya da güclü möhkəmləndirilmiş rayona çevrilməsi planlaşdırılmışdı. Buna görə də adada ordu üçün kazarma və anbarlar tikilir, telefon əlaqəsi yaradılırdı. Noyabrın əvvəllərində Nargin adasında 8 top yerləşdirilmişdi, Bayıldan məntəqələrə paylamaq üçün 6 top aparıldı.

Dayaq məntəqələri arasında etibarlı rabitə əlaqəsinə xüsusi diqqət yetirilirdi. Xüsusilə Bakı möhkəmləndirilmiş rayonu idarəsindən aşağıda mövqe batareyasının idarəsi şəhər mərkəzi rabitə sistemindən asılı olmayan müstəqil rabitə sisteminə malik olmalı idi ki, Şıxov, Bayıl, Narginlə Zığ vasitəsilə, şəhər mərkəzi stansiyası və möhkəmləndirilmiş rayon rəisi idarə ilə əlaqə yarada bilsinlər. Şıxovda, Zığda və Nargində kommutatorlar quraşdırılmışdı ki, bu da səhra telefon məntəqələri ilə əlaqə yaratmağa imkan verirdi. Beləliklə, Nargin adasında və ya mövqe batareyasının idarəsində olmaqla hər bir məntəqə ilə danışmaq mümkün idi.

1919-cu il dekabrın 8-dən 14-dək Bakıya dənizdən girişdə müdafiə mövqelərinin möhkəmləndirilməsi işlərinin gedişi təftiş olunmuş və nəticələri hərbi nazirə məruzə edilmişdi. Bu təftiş görülmüş işlərdə bir sıra nöqsanların olduğunu üzə çıxarmışdı. Əgər Şıxov burnunda və Nargin adasında bütün işlər düzgün aparılırdısa, Sultan burnunda piyada üçün səngərlər düzgün qazılmamışdı və tikinti işlərinin sürəti zəif idi.

1919-cu il noyabrın 19-da general Sulkeviç tərəfindən M.Q.Tlexasa sərəncam verilmişdi ki, sərhəd mühafizəçiləri şöbəsi ilə birgə Xəzər sahillərinin, xüsusilə Qızılburunla Ələt arasında və sonra Astaraya qədər müşahidəni təşkil etsin.

Bakı möhkəmləndirilmiş rayonu qoşunlarının tərkibi bir, xüsusi mühüm vəziyyət yarandıqda isə iki piyada alayından ibarət idi. Qarnizonun bütün hissələrində ştatlar tezliklə müharibə dövrünün tələblərinə uyğunlaşdırılmalı, bütün komandir heyəti möhkəmləndirilmiş rayonun bütün mövqeləri ilə tanış olmalı idilər. 1919-cu ilin noyabrında Qala kəndində pulemyot və toplarla silahlandırılmış piyada bölüyü yerləşdirilmişdi ki, bu da onun münasib vəziyyəti ilə əlaqədar idi.

1920-ci ilin əvvəllərində Dövlət Müdafiə Komitəsinin qərarı ilə Bakı rayonunun möhkəmləndirilməsi üçün dövlət xəzinəsindən hərbi nazirliyin hesabına 6 milyon rubl məbləğində kredit ayrılmışdı. Ümumilikdə isə, hərbi nazirliyin Bakı möhkəmləndirilmiş rayonun mühəndis işləri üzrə smeta xərcləri 14 milyon rubl təşkil edirdi.

1920-ci ilin yazında Bakının müdafiəsini gücləndirmək məqsədilə möhkəmləndirilmiş rayonun rəisi general-mayor İ.A.Usubov 12 mart tarixli gizli əmrində qarnizonun hissələrinin döyüş hazırlığının gücləndirilməsi ilə əlaqədar başqa tədbirlərlə yanaşı Xəzər hərbi donanmasına da konkret tapşırıqlar vermişdi. Xüsusilə "Astrabad" və "Pirallahı" hərbi gəmiləri daim döyüş hazırlığı vəziyyətində olmaq, ticarət limanının rəisinə isə Şıxov burnu və Zığla əlaqəni təmin etmək üçün iki barkas ayırmaq göstərişi verilmişdi.

1920-ci il aprelin 8-də general-mayor Tlexas tərəfindən imzalanmış "Bakı möhkəmləndirilmiş rayonu hərbi general-qubernatorunun Xəzər dənizinin su nəqliyyatı üzrə mütləq qərarı"nda xəbərdarlıq edilirdi ki, "xüsusi səlahiyyətə malik yollar və su nəqliyyatı nazirinin yazılı icazəsi olmadan heç bir gəmi Bakı buxtasından açıq dənizə çıxa bilməz".

Bakı buxtasına giriş və çıxışa yalnız gəmilərin yolu ilə - Nargin adası ilə Şıxov burnu arasından icazə verilirdi. Bütün gələn və Bakı buxtasından çıxan sərnişin və yük gəmiləri mütləq sahildən 3 kilometr məsafədə Bayıl burnunun sonundakı liman keşikçi gəmisinə sərnişinlərin pasportunun və yük sənədlərinin yoxlanması üçün yaxınlaşmalı idi. Yazılı şəkildə alınmış icazə isə dənizdə yalnız bir gün üzməyə hüquq verirdi. Bu qərarı pozanlar müharibə dövrünün bütün ciddiliyi ilə qanun qarşısında cavabdeh olurdu. Bu tədbirlər, hər şeydən əvvəl, Bakıya gizli yolla bolşevik qrupları tərəfindən silah gətirilməsinin, həmçinin gizli yolla neft və neft məhsullarının Həştərxana daşınmasının qarşısını almağa yönəldilmişdi. Eyni zamanda, 1918-1920-ci illər arasındakı dövr bir tərəfdən sovet hərbi-dəniz qüvvələrinin, digər tərəfdən isə ağqvardiyaçılar və ingilislərin arasında Xəzər uğrunda gedən kəskin silahlı mübarizəylə xarakterizə olunurdu.

1918-ci ilin payızında sovet hökuməti və dəniz komandanlığı Xəzər dənizində hərbi dəniz qüvvələrini gücləndirmək üçün təcili tədbirlər gördülər. Lenin vətəndaş müharibəsinin bu döyüş səhnəsinə mühüm əhəmiyyət verir, Rusiya Hərbi Şurasının Cənub cəbhəsi Qafqaz-Xəzər şöbəsi sədrinin adına göndərdiyi 1918-ci il 12 noyabr tarixli teleqramda tələb edirdi ki, "hərbi işlər və Xəzərin işğal olunması məsələsinin üzərinə möhkəm düşün".

Xəzərdə 1918-ci il avqustun 21-də ingilislərlə ilk toqquşma baş verdi. Həştərxan donanmasının tərkibində olan silahlı "Özbək" paroxodu Dərbəndin yaxınlığında İngiltərənin "Prezident Krüger" gəmisinə hücum etdi. "Prezident Krüger" gəmisinin yalnız yüksək sürəti ona təqibdən yayınmağa imkan verdi. General Denstervil sonralar xatırlayırdı ki, "Xəzər dənizində bizim ilk dəniz döyüşümüz beləcə şərəfsiz başa çatdı".

1918-ci il oktyabrın 13-də Həştərxan-Xəzər hərbi donanması yaradıldı. Donanma təyinatına görə iki müstəqil hissəyə - Həştərxanda yerləşmiş dəniz və Tsaritsındakı (Volqoqrad) çay hissələrinə bölünmüşdü. Baltik donanması və Volqa çayının yuxarı axarından Xəzərə gətirilən gəmilər hesabına gücləndirilmiş Həştərxan-Xəzər hərbi donanmasında 1918-ci ilin axırlarında 32 mm, əksəriyyəti isə 75-100 mm çaplı toplarla silahlanmış 13 ən böyük döyüş gəmisi (4 yardımçı kreyser və 6 esmines), həmçinin onlarla yardımçı gəmi, sualtı qayıq, 4 qırıcı və 6 hidroaeroplan var idi. Artıq 1918-ci ilin payızında Həştərxan-Xəzər hərbi donanması fəal hərbi əməliyyatlara başladı. Bir neçə müvəffəqiyyətli əməliyyat ingilislərin özlərini Xəzərdə tam səlahiyyət sahibi kimi hiss etməsinə imkan vermədi.

1919-cu ildə yazın gəlməsi ilə Xəzər dənizində fəal döyüş əməliyyatları yenidən başlandı. Aprel ayının sonunda Həştərxan-Xəzər hərbi donanması Aleksandrovsk fortunu və Port-Petrovski işğal etmək üçün əməliyyatlar keçirdi. Aprelin 30-də hərbi dənizçi desantçılar tərəfindən Aleksandrovsk istehkamı işğal olundu. Lakin mayın 21-də Tüb-Karaqan körfəzində Həştərxan-Xəzər hərbi donanması dəniz döyüşündə müvəffəqiyyətsizliyə uğradı. İngilis-ağqvardiyaçı donanmasının gəmiləri, gəmi artilleriyasının güclü atəşi, gəmilərin sürətliliyi və manevrliliyi baxımından üstünlüyü, həmçinin havada tam üstünlüyə malik olması nəticəsində sovet hərbi donanmasına ciddi zərər vurdu. Hətta donanmanın bir neçə gəmisi batırıldı. Həştərxan-Xəzər hərbi donanması yerdə qalan gəmiləri Aleksandrovsk fortunda qoyub, mühasirəyə alınmış Həştərxana çəkildi. Xəzər dənizində hərbi əməliyyatlar səhnəsində təşəbbüs ingilis-ağqvardiyaçı hərbi dəniz qüvvələrinə keçdi.

1919-cu ilin yayında donanmada dəyişiklik aparıldı. RSFSR Hərbi İnqilab Şurasının 1919-cu il 31 iyul tarixli əmri ilə Volqa və Həştərxan-Xəzər hərbi donanmaları Şimal, Yuxarı Həştərxan və Dəniz olmaqla üç dəstədən ibarət Volqa-Xəzər hərbi donanmasında birləşdirildi. Volqa-Xəzər hərbi donanmasına F.F.Raskolnikov komandan təyin olundu. Xəzərdə döyüş əməliyyatlarını donanmanın dəniz dəstəsi aparırdı. 1919-cu ilin avqustunda Volqa-Xəzər donanması bütövlükdə müxtəlif tipli 130 gəmidən ibarət idi. Volqa-Xəzər hərbi donanmasının gücü imkan verirdi ki, Həştərxanı və Volqanın mənsəbini nəinki müdafiə etsin, hətta 1919-cu ilin yayında və payızında denikinçi hərbi donanmaya güclü zərbələr endirsin.

Denikinçi Xəzər hərbi donanması başda "Oryol" flaqman xidmət gəmisi olmaqla üç dəstədən ibarət idi. Birinci dəstənin tərkibinə 9 yardımçı kreyser daxil idi. Bu dəstə əsas etibarı ilə Həştərxan yaxınlığında 12 futluqda reyd edirdi. Volqanın mənsəbində hərəkət edən ikinci dəstə 6 kanoner qayığından və 3 barjdan ibarət idi. Nəhayət, nisbətən zəif olan üçüncü dəstə əsas etibarı ilə yardımçı gəmilərdən – motorlu katerlərdən, nəqliyyat gəmilərindən, hidromatlardan (4 aparatlı), xidmət gəmisi və bir kanoner qayığından ibarət idi. Qırmızı donanma əleyhinə döyüş əməliyyatları aparmaqla yanaşı, ağqvardiyaçı döyüş gəmilərinin qarşısında belə bir tapşırıq qoyulmuşdu ki, yalnız İran və Port-Petrovsk limanları ilə əlaqə saxlamaqla Azərbaycan dənizdən hər vəchlə təcrid edilsin. O dövrdə baş vermiş hadisələrin fəal iştirakçısı ağqvardiyaçı N.Ryabinin qeydlərinə görə, "cənubda Xəzərdən başqa heç bir yerdə ağların dəniz qüvvələri komandanlığı belə mükəmməl formada olmamışdı".

1920-ci ilin əvvəlləri Cənub və Türküstan cəbhələrində Qızıl Ordunun bir sıra böyük qələbələri ilə əlamətdar oldu. Fevralın 6-da M.Frunzenin qoşunları Xəzər dənizinin ən böyük limanlarından olan Krasnovodsku tutmuşdu. 1920-ci il martın 18-də dəniz yolunun açılması ilə 8 yardımçı kreyserin, 18 esminesin, 19 kanonerin, 4 sualtı qayığın və s. daxil olduğu Volqa-Xəzər hərbi donanması Xəzərdə fəal döyüş əməliyyatlarına başladı. Volqa-Xəzər hərbi donanmasına tapşırıq verilmişdi ki, "sahil məntəqələrindən geniş istifadə etmək şərtilə Xəzər dənizini ələ keçirsin".

Aprelin 2-də donanmanın gəmiləri artıq XI ordu tərəfindən tutulmuş Port-Petrovska yaxınlaşdı. Donanma buradan Aleksandrovsk fortuna doğru hərəkət etdi və tezliklə fort təslim oldu. Nəticədə 2 ağqvardiyaçı general, 70 zabit, mindən çox kazak əsir götürüldü. Bütün bu uğursuzluqlar ağqvardiyaçıları məcbur etdi ki, donanmanı İranın Ənzəli limanına ingilislərin himayəsinə aparsın. Bu donanmanın gəmiləri həm də Azərbaycan hakimiyyətinin icazəsi ilə 1920-ci il aprelin əvvəllərində Bakı limanına daxil olmuşdu.

Eyni zamanda, Qafqaz cəbhəsinin komandanlığı artıq 1920-ci ilin yazında Azərbaycana soxulmaq üçün hazırlığa başladı. Qafqaz cəbhəsi komandanlığının 1920-ci il 21 aprel tarixli direktivinə uyğun olaraq Volqa-Xəzər hərbi donanmasının komandanı F.Raskolnikova göstəriş verilmişdi ki, XI ordu Bakıya yaxınlaşarkən Ələt stansiyası rayonuna hərbi dənizçilərdən ibarət desant çıxarsın və Bakıda neftdoldurma donanmasını ələ keçirsin və neft mədənlərinin məhv edilməsinə yol verməsin. Sovet komandanlığı ehtiyat edirdi ki, onların zirehli qatarı Bakıya hərəkət edən zaman Azərbaycan hərbi donanmasının gəmiləri böyük çaplı topların atəşi ilə zirehli qatarı məhv edər, körpüləri və yol tikintilərini dağıdar. Bunun üçün minadaşıyan diviziona tapşırıq verilmişdi ki, Abşeron yarımadasının digər tərəfinə çıxsın, Azərbaycanın "ordunun cinahlarından asılmış" kanoner gəmilərini Sumqayıta qədər nəzarətdə saxlasın. Sonra isə onlar şəraitdən asılı olaraq hərəkət etməli idilər. Azərbaycan donanması qeyri-fəal hərəkət edərdisə, onda sovet minadaşıyıcıları Bulla adasına tərəf manevr etməli və Bakı-Ənzəli əlaqəsini kəsməli idi ki, Bakıdan təxliyənin və əksinə, Ənzəlidən Bakıya kömək göndərilməsinin qarşısı alınsın.

Lakin 1920-ci il aprelin 27-də XI ordu Azərbaycan ərazisinə daxil olduqdan sonra Azərbaycanın Xəzər hərbi donanması özünü tamamilə başqa cür apardı. Lakin bolşeviklərin zirehli qatarının Bakıya daxil olmasına kanoner gəmilərindəki topların atəşi ilə maneə yaratmalı olan donanma nəinki öz döyüş tapşırığını yerinə yetirə bilmədi, hətta aprel çevrilişində fəal iştirak etdi. Bu, onunla bağlı oldu ki, yerli kommunistlər "Kars" və "Ərdəhan" kanoner gəmilərinə öz adamlarını sala və hətta burada özlərinin ilkin özəklərini yarada bilmişdilər. Bakının dənizdən müdafiəsinin yarılmasında Bakı hərbi limanında rəis müavini işləyən kommunist Çingiz İldırım sahil batareyaları toplarının sürgülərini sökməklə fəal rol oynamışdı.

Bu vaxt Ələt stansiyası rayonuna yaxınlaşan Volqa-Xəzər hərbi donanmasının 650 əsgər, pulemyot və 4 düymlük toplarla silahlanmış hərbi dənizçilərdən ibarət desantçılar dəstəsi cənub istiqamətində irəlilədi. Volqa-Xəzər hərbi donanması gəmiləri – "Karl Libknext", "Deyatelnı" və "Rastoropnı" esminesləri mayın 1-də Bakı buxtasına daxil oldular. Mayın 3-də və 4-də Lənkərana və Astaraya hərbi-dəniz desantçıları çıxarılmış və bununla də Azərbaycanın bütün Xəzəryanı ərazisi Volqa-Xəzər hərbi donanmasının nəzarətinə keçmişdi.

Beləliklə də Azərbaycan Respublikasının döyüş qabiliyyətli, güclü hərbi dəniz qüvvələri yaratmaq cəhdləri ilk mərhələdə uğursuzluğa uğradı. Bu, bir tərəfdən respublika hərbi dəniz donanması gəmilərində maddi-texniki bazanın zəif olması, digər tərəfdən isə donanma zabit kadrlarının və mütəxəssislərinin olmaması ilə bağlı idi. Bundan başqa, respublikada hərbi dəniz qüvvələrinə yüksək səviyyəli komanda-mühəndis kadrlarının hazırlanması üçün xüsusi tədris məktəbi yox idi. Burada Rusiya imperiyasının Şimali Azərbaycana olan müstəmləkəçilik siyasəti, xüsusilə hərbi sahədə, azərbaycanlıların hərbdən, hərbi dəniz təhsilindən uzaqlaşdırılması, həmçinin onların Rusiyanın hərbi dəniz qüvvələrində xidmət etmək imkanından məhrum edilməsi də acı nəticəsini göstərdi.

Bu dövrdə Azərbaycan hökumətinin Xəzər dənizində hərbi dəniz qüvvələrini yaratmaq cəhdləri xaricdən, xüsusilə denikinçilər tərəfindən əks təsirlə qarşılanırdı. Odur ki, Azərbaycan yalnız Bakının dənizdən müdafiəsini təşkil etməklə kifayətlənməli oldu. 1918-1920-ci illərdə kifayət qədər döyüş qabiliyyətli milli hərbi dəniz qüvvələrinin yaradılmamasının əsas səbəbi isə Azərbaycan Xalq Cümhuriyyətinin ömrünün qısamüddətli olması idi.

**_Nurulla Əliyev,_**
*tarix elmləri doktoru,*
*Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının Adyunktura və elm şöbəsinin hərb tarixi üzrə professoru,*
*"Azərbaycan Tarixçiləri" İctimai Birliyinin üzvü,*
*ehtiyatda olan 1-ci dərəcəli kapitan*

# ADDA İLƏ MƏRAKEŞ ALİ DƏNİZ ARAŞDIRMALARI İNSTİTUTU ƏMƏKDAŞLIQ EDƏCƏK





***Azərbaycan Dövlət Dəniz Akademiyası ilə Mərakeş Ali Dəniz Araşdırmaları İnstitutu arasında əməkdaşlığa dair niyyət protokolu imzalanıb.***

İmzalanma Xarici İşlər Nazirliyində Azərbaycan-Mərakeş Hökumətlərarası Birgə Komissiyanın ilk iclası çərçivəsində baş tutub.

Sənədə Dəniz Akademiyasının rektoru Çingiz Əliyev və Mərakeşin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mohammad Adil imza atıblar.

5 illik müddətə imzalanan Niyyət Protokolu dənizçilik sahəsində təlim və tədqiqatlarla əlaqədar akademik əlaqələrin qurulmasını, tərəflər arasında mədəni, elmi və təhsil mübadiləsinin yaradılmasını və genişləndirilməsini, ümumi layihələrin və birgə proqramların həyata keçirilməsini nəzərdə tutur.

Qeyd edək ki, Azərbaycan-Mərakeş Hökumətlərarası Birgə Komissiyanın ilk iclası çərçivəsində danışıqlara Mərakeşin xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Nasser Bourita və Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov rəhbərlik ediblər.

# BAKIDA DÜNYA LİMANLAR KONFRANSI KEÇİRİLƏCƏK

***Mayın 8-dən 11-dək Bakıda keçiriləcək nüfuzlu Dünya Limanlar Konfransına qeydiyyat başlayıb.***




Bakı Beynəlxalq Dəniz Ticarət Limanından bildiriblər ki, respublikamızın paytaxtında keçiriləcək konfrans "Gələcəyin limanları: qovşaqlar yaratmaqla, qarşılıqlı əməkdaşlığın gücləndirilməsi" mövzusuna həsr olunacaq.

Beynəlxalq Limanlar Assosiasiyası (IAPH) 90 ölkədə 180-ə yaxın liman və limanlarla əlaqəsi olan 140 müəssisəni təmsil edir. Təşkilatın üzvləri dünya dəniz ticarətinin 60 faizindən çoxunu həyata keçirir və beynəlxalq konteyner marşrutlarının 80 faizinə nəzarət edir. IAPH hər il iri liman şəhərlərində konfranslar keçirir. Los-Anceles (2013), Sidney (2014), Hamburq (2015), Panama (2016) və Bali (2017) bundan əvvəlki konfranslara ev sahibliyi ediblər.

"IAPH Baku 2018"in iştirakçıları "Kəmər - Yol" təşəbbüsü çərçivəsində nəqliyyat dəhlizlərinin yaradılması, azad ticarət zonalarının milli iqtisadiyyata və qonşu ölkələrin iqtisadiyyatına töhfəsi və XXI əsrdə "SmartPorts" və "Yaşıl limanlar" konsepsiyası kimi mühüm və maraqlı mövzuların müzakirəsi üçün unikal imkan əldə edəcəklər.

Konfransda "DP World"un sədri və baş icraçı direktoru Sultan Əhməd bin Suleyem, "Forbes" və "BBC World"un əməkdaşı Ueyd Şepard, "FMP Associates Ltd"-nin direktoru və "Dubai Logistics City"nin sabiq baş icraçı direktoru Maykl Profitt, Triest limanının prezidenti Zeno-d'Aqostino, Nigeriya Limanlar Administrasiyasının icraçı direktoru Xadiza Bala Usman, "Port of Le Havre"nin baş direktoru Erve Martell və Şanxay Universitetinin professoru Teo Teotetomun çıxışları nəzərdə tutulur.

Maraqlı forum və diskussiyalarla yanaşı, konfrans iştirakçıları üçün mədəniyyət proqramı çərçivəsində əyləncəli tədbirlər və ekskursiyalar təşkil olunacaq.

# AZƏRBAYCAN NÜMAYƏNDƏLƏRİ TÜRKMƏNİSTANDA BEYNƏLXALQ SEMİNARDA İŞTİRAK EDİBLƏR



***Türkmənistanın "Avaza" Milli Turizm Zonasında "Xəzər dənizi – dayanıqlı inkişaf və idarəetmə" mövzusunda beynəlxalq seminar keçirilib. Türkmənistan Neft və Qaz Kompleksinin elektron qəzeti xəbər verir ki, seminar Beynəlxalq Okean İnstitutu (IOI) ilə birlikdə Türkmənistan Xarici İşlər Nazirliyi və Prezident yanında Xəzər Dənizi Məsələləri üzrə Dövlət Müəssisəsi tərəfindən təşkil edilib.***

Tədbirdə Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistanın müxtəlif nazirlik və idarələrinin mütəxəssisləri, habelə beynəlxalq ekspertlər – IOI-nin dəniz iqtisadiyyatı, siyasət, idarəetmə, ekologiya, dəniz hüququ sahəsində elmi müşavirləri iştirak ediblər.

Ongünlük treninqin proqramına Xəzəryanı ölkələrin inkişafının iqtisadi, sosial və ekoloji aspektləri ilə bağlı geniş əhatəli məsələlər daxil olub. Kurs mövzu baxımından dörd modula bölünüb: "Okeanın idarə olunması strukturu", "Su resurslarının davamlı idarə olunmasının maliyyə mexanizmləri", "Okeanla əlaqələrin idarə olunması mexanizmləri", "Xəzər dənizinin idarə olunması".

Seminar çərçivəsində "Okeanların sərvəti", "İqlim dəyişmələrinin dəniz mühitinə təsiri", "Dənizin biomüxtəlifliyi", "Ətraf mühitə təsirin qiymətləndirilməsi", "Sahilboyu zonaların kompleks idarə olunması", "Dəniz məkanının planlaşdırılması", "Xəzər dənizinin neft, qaz və digər resurslarının kəşfiyyatı və istismarında beynəlxalq hüququn tətbiqi", "Xəzər dənizi reallıqlarında gəmiçiliyin tənzimlənməsinə dair beynəlxalq normaların tətbiqi", "Qlobal İqtisadi Fondun Türkmənistanda layihələri", "Xəzər dənizi regionu: sosial-iqtisadi və siyasi kontekstlər", "Xəzər ekoloji proqramı" və s. mövzular müzakirə olunub.

Seminara mühazirələr, praktiki məşğələlər, interaktiv diskussiyalar, "dəyirmi masa"lar, təqdimatlar daxil olub.

Tədbir çərçivəsində Xəzər Dövlət Qoruğuna tanışlıq ekskursiyası təşkil edilib.

# BAKI TAXIL TERMİNALI BEYNƏLXALQ NƏQLİYYAT LAYİHƏLƏRİNİN FƏAL İŞTİRAKÇISI OLACAQ

***Bakı Taxıl Terminalı Qazaxıstan və Azərbaycanın birgə həyata keçirdiyi beynəlxalq nəqliyyat layihələrinin fəal iştirakçısı olacaq.***

Bu barədə Bakı Taxıl Terminalının idarə heyətinin sədr müavini Erjan Baymuhametov deyib.

"Azərbaycanın taxıla olan tələbatı ildə 3-3,5 milyon tondur. 2016-cı illə müqayisədə ötən il ölkə taxıl idxalını 20 faiz azaldıb. 2017-ci ildə Azərbaycan-Qazaxıstan Hökumətlərarası Komissiyasının iclasında tərəflər Qazaxıstan taxılının Azərbaycana ixracının illik həcminin 1 milyon tona çatdırılması barədə razılığa gəliblər. 15 min tona qədər dənli bitkiləri müvəqqəti saxlamağa imkan verən terminal müasir avadanlıqla təchiz olunub. Terminalın yükboşaltma gücü sutkada 1,5 min ton taxıl təşkil edir ki, bu da illik ekvivalentdə 300 min tona yaxın taxıla bərabərdir. Biz sutkada 150 ton un istehsal edirik. Terminal Qazaxıstan və Azərbaycanın bilavasitə iştirakı ilə regionda həyata keçirilən beynəlxalq nəqliyyat layihələrində fəal iştirak etmək niyyətindədir", - deyə E.Baymuhametov qeyd edib.

Sədr müavini deyib: "Bu il Qazaxıstan taxılını "Şimal-Cənub" nəqliyyat dəhlizinin, eləcə də Bakı-Tbilisi-Qars dəmir yolu marşrutunun imkanlarından istifadə edərək Türkiyə və Yaxın Şərq bazarlarına çıxarmaq planımız var. Dənli bitkilərin terminal vasitəsilə ixracına gəldikdə isə, biz "Prodkorporasiya" şirkəti ilə işləyirik. Şirkət Azərbaycana dənli bitkilər ixrac edir. Biz, həmçinin bizim terminal vasitəsilə İran tərəfinə taxıl nəqlinə maraqlı olan Azərbaycan və Rusiya treyderləri ilə əməkdaşlıq edirik".

Qeyd edək ki, terminal Qazaxıstan və Azərbaycan hökumətlərinin razılığı ilə 2006-cı ildə yaradılıb. 12 ildir Azərbaycana bu terminal vasitəsilə taxıl göndərilir.

# BMT TƏHLÜKƏSİZLİK ŞURASI TAPI QAZ KƏMƏRİ TİKİNTİSİ LAYİHƏSİNİ ALQIŞLAYIB

***BMT Təhlükəszilik Şurası Türkmənistan-Əfqanıstan-Pakistan-Hindistan (TAPI) qaz kəməri tikintisi layihəsini alqışlayıb.***




BMT-nin Əfqanıstana yardım üzrə Missiyasının (MOOHCA) rəhbəri Tadamiçi Yamamoto bu barədə BMT Təhlükəsizlik Şurasının iclasında məlumat verib.

Tadamiçi Yamamoto Əfqanıstan iqtisadiyyatında vəziyyəti yaxşılaşdırmağa yönəlmiş sərmayələr barədə söhbət açaraq bildirib ki, bu yaxınlarda Türkmənistan-Əfqanıstan-Pakistan-Hindistan qaz kəməri tikintisi layihəsinə start verilib.

Tadamiçi Yamamoto deyib: "Uzunluğu 2000 kilometrə yaxın olacaq bu boru kəməri vasitəsilə təqribən 33 milyard kubmetr Türkmənistan qazını Əfqanıstandan keçməklə Pakistana və Hindistana nəql etmək mümkün olacaq. Analoqu olmayan bu layihə həm regional əməkdaşlıq və inteqrasiya sahəsində böyük nailiyyətdir, həm də Əfqanıstanın iqtisadi baxımdan özünəyetərliliyini təmin etməyə yönəlmiş, çoxdan düşünülmüş planın həyata keçirilməsinin əsasını qoyur".

Həmin iclasda BMT Təhlükəsizlik Şurasının üzvləri BMT-nin Əfqanıstana yardım Missiyasının müddətinin uzadılması barədə qətnamə qəbul ediblər. Qətnaməyə əsasən, Missiyaya Əfqanıstanda seçkilərin təşkilində bu ölkənin hakimiyyət orqanlarına kömək etmək barədə tapşırıq verilir.

Şura üzvləri həmin sənəddə "Taliban", "Əl-Qaidə" və İŞİD ilə bağlı qruplaşmalar tərəfindən törədilən fasiləsiz zorakılıq aktları və hücumlarla əlaqədar Əfqanıstanda təhlükəsizlik baxımından vəziyyətə görə narahatlıqlarını bildiriblər.

BMT Təhlükəsizlik Şurasının üzvləri yeni qətnamədə Əfqanıstanın inkişafı sahəsində regional təşəbbüsləri, o cümlədən "İpək yol iqtisadi kəməri" və "XXI əsrin dəniz İpək yolu" təşəbbüsünü, habelə Türkmənistan-Əfqanıstan-Pakistan-Hindistan qaz kəməri tikintisi layihəsini, eləcə də Türkmənistan-Akina və Herat-Haf dəmiryol sahələrinin tikintisi layihəsini dəstəkləyiblər.

# TAP-IN YUNANISTAN VƏ ALBANİYA MARŞRUTUNUN 93 FAİZİ TƏMİZLƏNİB

Trans Adriatic Pipeline

***Azərbaycan qazının Avropaya nəqli üçün inşa olunan "Trans-Adriatik" (TAP) qaz boru kəmərinin Yunanıstan və Albaniya marşrutunun 93 faizi təmizlənib.***

Bu barədə TAP-ın rəsmi internet səhifəsində məlumat yayılıb.

Bildirilib ki, bu, iki ölkədə boru kəmərinin 765 kilometrlik marşrutunun 710 kilometri deməkdir.

Qeyd edək ki, Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan TAP layihəsi Cənubi Qafqaz Boru Kəmərinin və TANAP-ın davamıdır, "Şahdəniz-2"dən hasil olunacaq qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. TAP boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhədində yerləşən Kipoi ərazisindən başlayacaq. Buradan TAP boru kəməri Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. Boru kəməri burada "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulub.

Boru kəmərinin uzunluğu 878 kilometr (Yunanıstan–550 kilometr, Albaniya–215 kilometr, Adriatik dənizi–105 kilometr, İtaliya–8 kilometr), diametri isə 48 düymdür (sualtı hissə - 37 düym). Boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçəcək. 2020-ci ilədək layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 1,2 milyard dollar olması gözlənilir.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagás" (16 faiz) və "Axpo" (5 faiz).

# DƏMİR YOLU GƏLƏCƏKDƏ DƏNİZALTI TUNELLƏ BİRLƏŞDİRİLƏCƏK

***Finlandiya və Norveç hökumətləri arasında Finlandiyanın şimalından Barents dənizi sahillərinə qədər Arktik dəmir yolunun tikintisi layihəsinin həyata keçirilməsinə dair saziş imzalanıb.***

"Reuters" agentliyi xəbər verir ki, regionda ticarət marşrutları və biznes imkanlarının yaxşılaşdırılmasına xidmət edəcək yeni dəmir yolu Finlandiyanın şimalındakı Rovaniemi şəhərindən Rusiya sərhədlərinin 15 kilometrliyində yerləşən Norveçin Kirkenes limanınadək uzanacaq.

İki ölkənin hökumətlərinin hesablamalarına görə, 2030-cu ildə istifadəyə veriləcək dəmir yolunun tikintisi 2,9 milyard avroya başa gələcək. Bu, Avropa İttifaqına üzv dövləti Şimal Buzlu okeanı limanı ilə birləşdirəcək ilk dəmir yolu olacaq.




İmzalanma mərasimindən sonra Finlandiyanın nəqliyyat və kommunikasiyalar naziri Anne Berner bildirib ki, Arktik dəmir yolu layihəsi Arktik Avropa ilə kontinental Avropanı birləşdirəcək mühüm nəqliyyat dəhlizi olacaq, bir çox sənaye sahəsinin inkişafına təkan verəcək.

Finlandiyalı nazir əlavə edib ki, dəmir yolu gələcəkdə inşa ediləcək Finlandiya-Estoniya dənizaltı tuneli, həmçinin 2026-cı ildə tamamlanacaq Tallinn-Varşava nəqliyyat dəhlizi ilə birləşdiriləcək.

Arktik ölkə olmamasına rəğmən, ötən ay Çin hökuməti də Şimal Buzlu okeanı ilə yükdaşımalarında fəal iştirak etmək niyyətini açıqlayıb.

# BEYNƏLXALQ KONVENSİYAYA EDİLƏN DÜZƏLİŞLƏR QÜVVƏYƏ MİNİB

***"Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında" 1973-cü il tarixli Beynəlxalq Konvensiyanın (MARPOL 73/78) 6-cı Əlavəsinin 4-cü bölməsinə edilən dəyişikliklər 2018-ci il martın 1-dən qüvvəyə minib.***




Yeni tələblərə əsasən, ümumi tutumu 5000 ton və yuxarı olan gəmilər istifadə etdikləri hər növ yanacağa dair məlumatları toplamalı olacaqlar.

Həmçinin yeni əlavələr Beynəlxalq Dəniz Təşkilatının "Gəmidə istifadə olunan yanacağa dair məlumat bazası"na daxil ediləcək məlumatları və müvafiq məlumatların gəmi tərəfindən təqdim edildikdən sonra veriləcək "Uyğunluq haqqında Şəhadətnamə"nin formasını özündə əks etdirir.

Digər düzəlişlər isə sertifikat və Dövlət Liman Nəzarəti ilə bağlı yeni tələblərin təmin edilməsi ilə bağlıdır.

"Neftlə Çirkləndirmənin Qarşısının Alınması haqqında Beynəlxalq Şəhadətnaməyə Əlavə"nin (Forma B) yenilənməsi üçün "Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında" 1973-cü il tarixli Beynəlxalq Konvensiyanın (MARPOL 73/78) 1-ci Əlavəsinə təcrid edilmiş ballast tankları ilə əlaqədar düzəlişlər də qüvvəyə minib.

Yeniliklər arasında dəniz mühitinə təhlükəli olan məhsullarla və "Zibillə Əməliyyat Jurnalı"nın forması ilə bağlı "Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında" 1973-cü il tarixli Beynəlxalq Konvensiyanın (MARPOL 73/78) 5-ci Əlavəsinə edilən düzəlişlər də yer alıb.

Qeyd edilən düzəlişlər dəniz mühiti üçün təhlükəli olan tökmə yüklərin təsnifatlaşdırılması meyarlarını, eləcə də bu cür təsnifləşən və dənizə axıdılmayan tullantıların gəmi sahibi (və yaxudda gəmi) tərəfindən bildirilməsinin təmin edilməsini özündə ehtiva edir.

# DƏNİZÇİLƏRİN TİBBİ MÜAYİNƏSİ ZAMANI RƏHBƏR TUTULAN BEYNƏLXALQ QAYDALAR

***Qəzetimizin 22 fevral 2018-ci il tarixli nömrəsində "Dənizçilər poliklinikası" MMC-nin həkimi Adıgözəl Məmmədovun "Dənizçilərin tibbi müayinəsinin beynəlxalq tələbləri və differensial təhlil" adlı yazısı dərc olunmuşdu.***

Oxucuların marağını nəzərə alaraq, "Dəniz"in bu sayında müəllifin dənizçilərin tibbi müayinəsi zamanı rəhbər tutulan prinsiplər barədə fikirlərini diqqətinizə təqdim edirik.

Beynəlxalq Dəniz Təşkilatı (İMO) səlahiyyətli qurum olaraq, tibbi fəaliyyətlə məşğul olan şəxslər, müayinə edənlər, gəmiçilik müəssisələri, dənizçilərin yararlılıq baxımından tibbi müayinəsinin həyata keçirilməsi zamanı Beynəlxalq Əmək Təşkilatı (ILO) və Ümumdünya Səhiyyə Təşkilatı (WHO) tərəfindən 1997-ci ildə nəşr olunmuş Dənizçilər üçün Dəniz Öncəsi və Mütəmadi Tibbi Uyğunluq Müayinələri haqqında Qaydalara, o cümlədən, onların düzəliş və nəşr edilmiş sonrakı versiyalarına riayət edilməsini vacib sayır. 2006-cı ildə qəbul edilmiş Dəniz Əməyi Konvensiyasına görə, dənizçilərin öz vəzifələrini tibbi yararlılığı baxımından yerinə yetirib və ya yetirə bilməməyi tibbi sertifikatın verilməsi qaydalarına uyğun həyata keçirilir.

Səlahiyyətli orqan tələb edir ki, dənizçilər gəmidə işə başlamazdan əvvəl onların dənizdə icra etməli olduqları vəzifələri yerinə yetirməyə sağlamlıq vəziyyətləri baxımından yararlı olduqlarını təsdiq edən etibarlı tibbi sertifikata malik olmalıdırlar. STCW-nin (Dənizçilərin Hazırlanması, Sertifikatlaşdırılması və Növbə Çəkmə Standartları Haqqında Beynəlxalq Konvensiyanın) tələblərinə əsasən verilmiş tibbi sertifikat səlahiyyətli orqan tərəfindən qəbul olunur. Eyni zamanda da STCW (Dənizçilərin Hazırlanması, Sertifikatlaşdırılması və Növbə Çəkmə Standartları Haqqında Beynəlxalq Konvensiya) ilə əhatə olunmayan dənizçilərlə (daxili sularda üzən dənizçilər) bağlı həmin tələblərin mahiyyətinə cavab verən tibbi sertifikatlar da eyni qaydada qəbul olunmalıdır. Tibbi sertifikat müvafiq ixtisasa malik, tibbi fəaliyyətlə məşğul olan şəxs (həkim) tərəfindən və ya yalnız görmə ilə bağlı olduqda, səlahiyyətli orqan tərəfindən belə sertifikatı vermək səlahiyyəti verilmiş şəxs tərəfindən verilməlidir. Tibbi fəaliyyətlə məşğul olan şəxslər tibbi müayinə prosedurları baxımından öz tibbi dəyərləndirmələrinin həyata keçirilməsi ilə əlaqədar peşəkarlıq anlamında müstəqil olmalıdırlar. Tibbi sertifikat verilməsindən imtina edilmiş və ya işləmək qabiliyyətlərinə məhdudiyyət tətbiq edilmiş dənizçilərə onların başqa müstəqil tibbi fəaliyyətlə məşğul olan şəxs və ya digər müstəqil tibbi həkim tərəfindən müayinə olunmaq imkanı verilməlidir. Müayinələrin nəticəsindən asılı olaraq dənizçi STCW-yə (Dənizçilərin Hazırlanması, Sertifikatlaşdırılması və Növbə Çəkmə Standartları Haqqında Beynəlxalq Konvensiyaya) əsasən qısa müddət sonra təkrar tibbi yoxlanışa ehtiyac olmadıqda tibbi sertifikat bir il, maksimum isə iki il müddətinə etibarlı ola bilər. Əgər tibbi sertifikatın qüvvədə olma müddəti dənizçi səfərdə olarkən başa çatırsa, bu halda həmin tibbi sertifikat 3 aydan artıq olmamaq şərti ilə, dənizçinin tərəf dövlətin tanımış olduğu tibbi fəaliyyətlə məşğul olan şəxslərdən tibbi arayış almaq imkanı olduğu növbəti daxilolma limanına qədər qüvvədə qalacaqdır. Bir qayda olaraq beynəlxalq səfərlər həyata keçirən gəmilərdə işləyən dənizçilərin tibbi sertifikatları ən azı ingilis dilində verilməlidir. Sertifikat, düzəliş edilmiş 1978-ci il STCW (Dənizçilərin Hazırlanması, Sertifikatlaşdırılması və Növbə Çəkmə Standartları Haqqında Beynəlxalq Konvensiya), həm də 2006-cı il Dəniz Əməyi Konvensiyasının tələblərinə cavab vermək məqsədi ilə verildiyini əks etdirməlidir. Qayda B1.2-yə görə tibbi sertifikatı verən orqan haqqında məlumat, sertifikatı verən orqanın rəsmi möhürü (o cümlədən adı), səlahiyyətli şəxsin imzası və dənizçinin öz imzası da olmalıdır. Dənizçi bu imzası ilə sertifikatın məzmunu və STCW (Dənizçilərin Hazırlanması, Sertifikatlaşdırılması və Növbə Çəkmə Standartları Haqqında Beynəlxalq Konvensiya) Məcəlləsinin A-I/9 Qaydasının 6-cı paraqrafına əsasən sertifikata yenidən baxılması hüququ ilə tanış olduğunu təsdiqləyir. Bütün bu tibbi müayinələr 2006-cı il Dəniz Əməyi Konvensiyasına görə tibbi sertifikatın verilməsi qaydalarına uyğun olmalıdır.

### 2006-cı il Dəniz Əməyi Konvensiyasından Çıxarış

### Qayda 1.2 – Tibbi sertifikat

*(Dəniz Əməyi Konvensiyasında tibbi sertifikatın verilməsi ilə bağlı qaydalar hissəsi)*

Məqsədi: Bütün dənizçilərin onların dənizdəki vəzifələrini yerinə yetirməyə tibbi cəhətdən yararlı olmasını təmin etməkdir

Qayda B1.2.1 – Beynəlxalq qaydalar

1. Səlahiyyətli orqan, tibbi fəaliyyətlə məşğul olan şəxslər, müayinə edənlər, gəmi sahibləri, dənizçilərin nümayəndələri və namizəd dənizçilərin, eləcə də, xidmət edən dənizçilərin yararlılıq baxımından tibbi müayinəsinin həyata keçirilməsi ilə əlaqəli olan bütün digər şəxslər ILO (Bynəlxalq Əmək Təşkilatı) və Ümumdünya Səhiyyə Təşkilatı (WHO) tərəfindən 1997-ci ildə nəşr olunmuş Dənizçilər üçün Dəniz Öncəsi və Mütəmadi Tibbi Uyğunluq Müayinələri haqqında Qaydalara, o cümlədən, onların düzəliş edilmiş sonrakı versiyalarına, habelə, Beynəlxalq Əmək Təşkilatı, Beynəlxalq Dəniz Təşkilatı və ya Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən nəşr edilmiş digər beynəlxalq qaydalara riayət etməlidirlər.

Qayda 4.1 – Gəmidə və quruda tibbi xidmət

Məqsədi: Dənizçilərin sağlamlığının qorunmasını və onların gəmidə və quruda təcili tibbi xidmət əldə etmələrini təmin etmək

1. Hər bir Tərəf dövlət təmin edir ki, onun bayrağı altında üzən gəmilərdə xidmət göstərən dənizçilər onların sağlamlığının qorunması üçün müvafiq tədbirlərlə əhatə olunsun və onlar gəmidə işləyən zaman təcili və adekvat tibbi xidmət əldə edə bilsinlər.

2. Bu Qaydanın 1-ci paraqrafında nəzərdə tutulmuş qorunma və xidmət, prinsip etibarı ilə, dənizçilərə pulsuz təqdim olunur.

3. Hər bir Tərəf dövlət təmin edir ki, onun ərazisində olan gəmilərdə xidmət aparan və təcili tibbi xidmətə ehtiyacı olan dənizçilərə həmin Tərəf dövlətin quruda olan tibbi müəssisələrinə çıxış imkanı verilsin.

4. Gəmidə sağlamlığın qorunması və tibbi xidmətlərə dair Məcəllədə nəzərdə tutulmuş tələblər, dənizçilərin də ümumi olaraq quruda olan şəxslər üçün təmin edilmiş sağlamlığın mühafizəsi və tibbi xidmətə mümkün qədər müqayisə olunan həddə olan müvafiq sağlamlığın mühafizəsi və tibbi xidmət ilə təmin edilməsinə yönəlmiş tədbirlər üzrə standartları özündə əks etdirir.

Standart A4.1 – Gəmidə və quruda tibbi xidmət

1. Hər bir Tərəf dövlət təmin edir ki, onun bayrağı altında üzən gəmilərdə xidmət aparan dənizçilərin sağlamlığının mühafizəsi və onlara tibbi xidmət, o cümlədən zəruri stomatoloji xidmət göstərilməsini təmin edən tədbirlər aşağıda qeyd olunan məqsədlər üçün qəbul olunsun:

(a) dənizçilərin vəzifələri ilə əlaqədar olan istehsalatda sağlamlığın mühafizəsi və tibbi xidmətlə bağlı ümumi təminatların, habelə, gəmidə işin xüsusiyyətini nəzərə alan xüsusi təminatların dənizçilərə şamil olunmasının təmin edilməsi;

(b) dənizçilərin zəruri dərman preparatları, tibbi avadanlıqlar, tibbi diaqnostika və müalicə, habelə, tibbi məlumat və ekspertiza müəssisələrinə təxirəsalınmaz çıxış əldə etmələri də dail olmaqla, onlara təqdim edilən sağlamlığın mühafizəsi və tibbi xidmətin bir qayda olaraq quruda olan şəxslərə təqdim edilən sağlamlığın mühafizəsi və tibbi xidmətlə mümkün qədər müqayisə olunan həddə olmasının təmin edilməsi;

(c) dənizçilərin, praktiki cəhətdən mümkün olduğu hallarda, gəminin daxil olduğu limanlarda təxirə salınmadan ixtisaslaşdırılmış həkimini və ya diş həkimini ziyarət etmək hüququ verilməsi;

(d) dənizçi gəmidə olan zaman və ya xarici limanda gəmidən düşürüldükdə ona Tərəf dövlətin milli qanunvericiliyinə və təcrübəsinə uyğun olan həddə ödənişsiz tibbi xidmət və sağlamlığın mühafizəsi xidməti göstərilməsinin təmin edilməsi;

(e) yalnız xəstə və xəsarət almış dənizçinin müalicəsi ilə məhdudlaşmaması, habelə sağlamlığın mühafizəsi və sanitar maarifləndirmə proqramlarının işlənməsi kimi qabaqlayıcı xarakterli tədbirlərin görülməsini də özündə əks etdirilməsi.

2. Müvafiq səlahiyyətli orqan gəmi kapitanları və quruda və ya gəmidə olan müvafiq tibbi personal tərəfindən istifadə olunacaq standart tibbi hesabat kartı formasını işləyib hazırlamalıdırlar. Həmin kart forması doldurulduqdan sonra onun özü və içərisində olan məlumatlar məxfi saxlanılmalı və yalnız dənizçilərin müalicəsinin təkmilləşdirilməsi məqsədi ilə istifadə olunmalıdır.

3. Hər bir Tərəf dövlət, onun bayrağı altında üzən gəmilərdə xəstəxana və tibbi xidmət müəsssisələri, avadanlıqları və tərlimlərinə dair tələblər müəyyən edən milli qanunvericilik və normativ hüquqi aktlar qəbul etməlidir.

4. Milli qanunvericilik və normativ - hüquqi aktlarda minimum olaraq aşağıdakı tələblər müəyyən edilməlidir:

(a) bütün gəmilər, tərkibi və məzmunu səlahiyyətli orqan tərəfindən əvvəlcədən müəyyən edilən və onun tərəfindən mütəmadi olaraq baxış keçirilən gəmi dərmanqutusu, tibbi avadanlıqlarla və tibbi təlimatlarla təmin olunmalıdır; milli tələblərdə gəminin növü, onun bortunda olan şəxslərin sayı, xarakteri, səfərlərin istiqaməti və davamiyyəti, habelə milli və beynəlxalq səviyyədə tövsiyə olunan müvafiq tibbi standartlar nəzərə alınmalıdır;

(b) içərisində 100 nəfər və ya daha artıq dənizçilər olan və bir qayda olaraq üç gündən artıq beynəlxalq səfərlərdə olan gəmilərdə tibbi xidmətə məsul olan gəmi həkimi olmalıdır; milli qanunvericilik və ya normativ hüquqi aktlar - həmçinin, xüsusilə də səfərin davamlılığı, xarakteri və şərtləri habelə, gəmidə olan dənizçilərin sayı kimi amilləri nəzərə almaqla hansı digər gəmilərdə gəmi həkiminin olmalı olduğunu müəyyən edir;

(c) gəmi həkimi olmayan gəmilərdə heyətin tərkibində öz adi vəzifələrinin bir hissəsi kimi tibbi xidmətə və dərman vasitələrinin qəbuluna görə məsul olan ən az bir nəfər dənizçi və yaxud da ilkin tibbi yardım göstəmək bacarıqlarına malik olan ən az bir nəfər dənizçi olmalıdır; öz ixtisaslarına görə həkim olmayan, lakin gəmidə tibbi xidmətlərin göstərilməsinə görə məsul olan şəxslər tibbi xidmətin göstərilməsi üzrə düzəlişlərlə birlikdə 1978-ci il Dənizçilərin Hazırlanması, Sertifikatlaşdırılması və Növbə Çəkmə Standartları Haqqında Beynəlxalq Konvensiyanın ("STCW") tələblərinə cavab verən təlim kursunu müvəffəqiyyətlə bitirmiş olmalıdırlar; milli qanunvericilik və normativ hüquqi aktlar xüsusilə də, səfərin davamlılığı, xarakteri və şərtləri, habelə, gəmidə olan dənizçilərin sayı kimi amilləri nəzərə almaqla tələb olunan hazırlığın səviyyəsini müəyyən etməlidirlər;

(d) səlahiyyətli orqan, radio vasitəsi ilə və ya peyk rabitəsinin köməyi ilə verilən tibbi məsləhətlərin, o cümlədən mütəxəssisləri məsləhətləri dənizdə olan gəmilərə gün ərzində 24 saat fasiləsiz çatdırılmasınını əvvəlcədən yaradılmış sistem əsasında təmin etməlidir; tibbi tövsiyələr, habelə gəmi ilə quruda olan məsləhətçilər arasında peyk rabitəsi ilə ismarıcların ötürülməsi gəmilərin hansı bayraq altında üzməsindən asılı olmayaraq onlar üçün ödənişsiz təmin edilməlidir.

2006-cı il MLC (Dəniz Əməyi Konvensiyası) (Standart A1.2) və düzəliş edilmiş 1978-ci il STCW (Dənizçilərin Hazırlanması, Sertifikatlaşdırılması və Növbə Çəkmə Standartları Haqqında Beynəlxalq Konvensiya) (Bölmə A-I/9, paraqraf 7) tibbi sertifikata daxil edilməli olan minimum məlumatları müəyyən edir. Bu Qaydalar milli prosedurların işlənib hazırlanması zamanı nəzərə alınmalı olan müvafiq Beynəlxalq Konvensiyaların digər müddəaları ilə uyğunluq təşkil etməlidir.



Qaydaların məqsədi, mümkün olduğu hallarda, subyektivliyin qarşısının alınması və qərar qəbulu üçün obyektiv meyarların müəyyən edilməsidir.

1. Tibbi sertifikatın etibarlılıq müddəti 2006-cı il MLC (Dəniz Əməyi Konvensiyası) (Standart A1.2, paraqraf 7) və düzəliş edilmiş 1978-ci il STCW (Dənizçilərin Hazırlanması, Sertifikatlaşdırılması və Növbə Çəkmə Standartları Haqqında Beynəlxalq Konvensiyanın) (Bölmə A-I/9-da) göstərilmişdir. Hər iki Konvensiyada nəzərdə tutulmuşdur ki, tibbi sertifikatlar onların verilməsi tarixindən etibarən ən çox 2 il müddətində qüvvədə ola bilər, lakin, əgər tibbi sertifikatın verildiyi şəxsin yaşı 18-dən az olarsa, bu halda tibbi sertifikatın qüvvədə olma müddəti 1 ildən artıq ola bilməz. Düzəliş edilmiş 1978-ci il STCW (Dənizçilərin Hazırlanması, Sertifikatlaşdırılması və Növbə Çəkmə Standartları Haqqında Beynəlxalq Konvensiyanın) müddəalarına əsasən verilmiş tibbi sertifikatın qüvvədə olma müddəti dənizçinin səfərdə olması zamanı başa çatırsa, bu halda həmin tibbi sertifikat 3 aydan artıq olmamaq şərti ilə, dənizçinin tərəf dövlətin tanımış olduğu tibbi fəaliyyətlə məşğul olan şəxslərdən tibbi arayış almaq imkanı olduğu növbəti daxilolma limanına qədər qüvvədə qalacaqdır. Təcili hallarda, administrasiya həmin Tərəf dövlətin tanımış olduğu tibbi fəaliyyətlə məşğul olan şəxsin olduğu növbəti daxilolma limanına qədər dənizçinin qüvvədə olan tibbi sertifikatı olmadan işləməsinə icazə verə bilər lakin o şərtlə ki, belə icazə müddəti üç aydan artıq davam etməsin və aidiyyəti dənizçi ən son tarixdə verilmiş, müddəti keçmiş sertifikata malik olsun. Əgər tibbi sertifikat rəngli görmə ilə bağlıdırsa, bu halda həmin sertifikat verildiyi tarixdən etibarən altı ildən artıq olmayan müddətdə qüvvədə qalacaqdır.

2. İki il, bir qayda olaraq yararlılığın yenidən qiymətləndirilməli olduğu müddətdir. Lakin, əgər tibbi müayinəni həyata keçirən şəxs dənizçinin dənizdə vəzifələrinin icrasına və ya sağlamlığına mənfi təsir göstərə biləcək şəraitin daha tezliklə nəzarətinin həyata keçirilməli olduğu qənaətinə gələrsə, bu halda tibbi sertifikat daha az müddətə verilməli və təkrar qiymətləndirilmənin həyata keçirilməsi üçün tədbirlər görülməlidir. Müəyyən hallarda öz səbəblərini əsaslandıra bildikdə, tibbi müayinəni həyata keçirən şəxslər yalnız etibarlılıq müddəti iki ildən az olan tibbi sertifikat verməlidirlər.

3. Tibbi fəaliyyətlə məşğul olan şəxslər, şəxsin tibbi sertifikatında qeyd olunduğu kimi işlədiyi bölmə (göyərtə / maşın / keytrinq / digər) üzrə bütün vəzifələrini icra etməyə dünya miqyasında yararlı olub-olmamasını; və ya həmin şəxslərin öz gündəlik və fövqəladə vəzifələrini yerinə yetirə bilmək imkanlarına baxmayaraq yalnız müəyyən edilmiş sularda işləyə bildiklərini; yaxud da bəzi gündəlik və fövqəladə vəzifələrin uyğunlaşdırılmasına zərurətin olub olmadığını qeyd etməlidir. Müşahidə növbəsi çəkmə vəzifələri kimi təhlükəsizliklə bağlı bacarıqlar xüsusi ilə qeyd olunmalıdır.

4. Əgər dənizçi gündəlik və fövqəladə vəzifələrini təhlükəsiz və səmərəli şəkildə yerinə yetirə bilmirsə və vəzifələrin uyğunlaşdırılması mümkün deyildirsə, bu halda dənizçiyə "vəzifəyə uyğun olmama" barədə məlumat verilməlidir. Əgər müvafiq vəzifənin uyğunlaşdırılması mümkündürsə, bu halda dənizçi "vəzifəyə məhdud yararlı" olması barədə məlumatlandırılmalıdır. Əgər xəstəlik və ya xəsarət etibarlı tibbi sertifikata malik olan dənizçinin gündəlik və fövqəladə vəzifələri yerinə yetirmək qabiliyyətinə xələl yetirə bilərsə, onların cari yararlılığının təkrarən qiymətləndirilməsi zəruri ola bilər. Belə müayinələrin həyata keçirilməsi, fəaliyyət qabiliyyətinin 30 gündən artıq müddətdə itirilməsi, tibbi səbəblərə görə gəmidən düşürülmə, xəstəxanaya qəbul edilmə və ya yeni dərman vasitələrinə tələb kimi xüsusi hallarda nəzərə alına bilər. Onların cari tibbi sertifikatlarına da müvafiq qaydada yenidən baxıla bilər.

5. Gələcəkdə dənizdə işləmək niyyətində olan hər hansı şəxslərin təlimlərə başlamazdan öncə, tələb olunan tibbi yararlılıq standartlarına cavab verdiklərinin təsdiq olunması məqsədi ilə tibbi müayinədən keçmələri məqsədəmüvafiq hesab edilir.

### II. Şəxsi Həyatın Məxfilik hüququ

6. Tibbi müayinələrə cəlb olunan bütün şəxslər, o cümlədən tibbi müayinə blankları, laborator təhlillərin nəticələri və digər tibbi məlumatlarla təmasda olan şəxslər tibbi müayinədən keçənin şəxsi həyatının məxfiliyi hüququna riayət etməlidirlər. Tibbi müayinə haqqında hesabatlarda onların məxfi olduğu qeyd olunmalı, belə hesabatlarla məxfi sənəd kimi davranılmalı və dənizçidən əldə olunmuş bütün tibbi məlumatlar qorunmalıdır. Tibbi sənədlərdən yalnız dənizçinin işə yararlı olub - olmamasının müəyyən edilməsi və tibbi xidmətlərin təkmilləşdirilməsi məqsədi ilə istifadə olunmalıdır; tibbi səndlərin dənizçinin yazılı şəkildə rəsmiləşdirilmiş razılığı olmadan digər şəxslərə açıqlanması yolverilməzdir. Şəxsi tibbi məlumatlar tibbi sertifikatlara və ya tibbi müayinədən sonra digər şəxslərə təqdim oluna bilən digər sənədlərə daxil edilməməlidir. Dənizçi öz şəxsi tibbi məlumatlarını əldə etmək və onların nüsxələrini götürmək hüququna malik olmalıdır.

### III. Tibbi fəaliyyətlə məşğul olan şəxslərin tanınması

7. Müvafiq səlahiyyətli orqanda dənizçilərin tibbi müayinəsini həyata keçirmək və onlara tibbi sertifikatlar vermək hüququna malik olan tibbi fəaliyyətlə məşğul olan tanınmış şəxslərin (həkimlərin) siyahısı olmalıdır. Müvafiq səlahiyyətli orqan, dənizçilərin tibbi müayinəsi üçün icazənin verilməsindən öncə tibbi fəaliyyətlə məşğul olan şəxslərin şəxsən müsahibə olunması və belə müayinələtin həyata keçirildiyi klinikalara baxış keçirilməsi zərurətini nəzərə almalıdır. Müvafiq səlahiyyətli orqan tərəfindən tanınmış (təsdiqlənmiş) tibbi fəaliyyətlə məşğul olan şəxslərin siyahısı sorğu verildiyi hallarda digər ölkələrdə olan səlahiyyətli orqanlara, şirkətlərə və dənizçi təşkilatlarına təqdim edilməldir.

8. Tibbi müayinələrin həyata keçirilməsi ilə bağlı təlimatların işlənib hazırlanması zamanı səlahiyyətli orqan nəzərə almalıdır ki, ümumi tibbi fəaliyyətlə məşğul olan şəxslərin dəniz sağlamlığı üzrə hazırlığa malik olan tibbi fəaliyyətlə məşğul olan şəxslərdən daha çox təfərruatlı tibbi təlimatlara ehtiyacı ola bilər.

9. Bundan başqa, mütəxəssislərin qaynar xəttinin təmin olunması yeni və mürəkkəb problemlərlə bağlı qərarların qəbul edilməsinə yardım edə bilər və qiymətləndirmələrin keyfiyyətinin artırılması məqsədi ilə istifadə oluna bilən məlumat mənbəyi ola bilər.

10. Səlahiyyətli orqan tətəfindən əvvəllər tanınmış olan, lakin sonradan - ötən 24 ay ərzində belə tanınmaları ləğv edilmiş tibbi fəaliyyətlə məşğul olan şəxslərin adları əlavə olunmaqla onların artıq səlahiyyətli orqan tərəfindən dənizçilərin tibbi müayinələrinin keçirilməsinə salahiyyətli şəxs kimi tanınmadıqları barədə qeyd aparılmalıdır.

11. Səlahiyyəli orqan tərəfindən tanınmış tibbi fəaliyyətlə məşğul olan belə şəxslər:

(i) onların işlədikləri yer üzrə tibbi qeydiyyat orqanı tərəfindən cari olaraq akkreditasiya olunmuş ixtisaslı tibbi fəaliyyətlə məşğul olan şəxs (həkim) olmalıdırlar;

(ii) ümumi və istehsalat tibbi və ya dəniz təsərrüfatı tibbi sahəsində təcrübəyə malik olmalıdırlar;

(iii) dənizçilərin müvafiq işə uyğunluğu baxımından səhhətlərində problemlərlə bağlı olaraq gəmilərdə yaşayış və iş şəraitləri və dənizçilərin işinə dair tələblər barədə əldə olunması yerindən asılı olmayaraq xüsusi təlimatlar vasitəsi ilə və ya şəxsi dənizçilik təcrübəsi əsasında məlumatlara malik olmalıdırlar;

(iv) dənizçilərin gəlmələri üçün rahat yerdə yerləşən və dənizçilərin tibbi cəhətdən yararlılığının müəyyən edilməsi məqsədi ilə keçirilən müayinələrə dair məxfilik, təvazökarlıq və təmizlik baxımından tələblərə cavab verən, dənizçilərin tibbi müayinələrinin həyata keçirilməsi üçün müvafiq tibbi müayinə müəssisəsinə malik olmaldırılar;

(v) dənizçilərin tibbi müayinəsinin həyata keçirilməsi prosedurları haqqında təlimat, o cümlədən tibbi müayinənin həyata keçirilməsi nəticəsində tibbi sertifikat verilməsindən imtina edilmiş şəxslər üçün şikayət prosedurları barədə məlumatlarla təmin edilməlidirlər;

(vi) özlərinin səlahiyyətli orqanın adından müayinələri həyata keçirən tibbi fəaliyyətlə məşğul olan şəxs qismində tutduqları etik mövqeyi yaxşı anlamalı və bununla bağlı hər hansı münaqişənin nəzərə alınmasını və həll olunmasını təmin etməlidirlər;

(vii) dənizçiyə tibbi sertifikatın verilib - verilməməsindən asılı olmayaraq, zəruri olduqda aşkar olunmuş hər hansı tibbi problemlərin daha ətraflı araşdırma və müalicə məqsədi ilə aidiyyəti üzrə yönləndirməlidirlər;

(viii) tibbi müayinə prosedurları baxımından öz tibbi dəyərləndirmələrinin həyata keçirilməsi ilə əlaqədar olaraq gəmi sahiblərindən, dənizçilərdən və onların nümayəndələrindən peşəkar asılılıq anlamında müstəqil olmalıdırlar. Dəniz işəgötürənləri və ya heyət formalaşdırma agentlikləri tərəfindən işə götürülmüş və yaxud onlarla xidmət müqaviləsi bağlamış şəxslər qiymətləndirmənin qanundan irəli gələn standartlara əsaslandığını təmin edən müqavilə şərtlərinə malik olmalıdırlar.

12. Bundan əlavə tövsiyə olunur ki, tibbi fəaliyyətlə məşğul olan belə şəxslər:

(i) müvafiq milli qanunvericilik və tənzimləmələrdə gəmilərdə tibbi xidmət göstəmək üçün məsul şəxs qismində təyin olunmuş dənizçilərin hazırlıq standartı haqqında məlumatla təmin olunmalıdırlar; və

(ii) Gəmilər üçün Beynəlxalq Tibbi Təlimatın ən son versiyası ilə və ya gəmilərdə istifadə olunmaq üçün ona bərabər tibbi təlimat ilə tanış olmalıdırlar.

13. Əgər veriləcək sertifikat yalnız dənizçinin görməsi və / və ya eşitməsi ilə əlaqədardırsa, bu halda səlahiyyətli orqan tibbi fəaliyyətlə məşğul olan tanınmış (təsdiqlənmiş) şəxslərdən fərqli digər şəxsə dənizçini yoxlamaq və belə sertifikatı vermək səlahiyyəti verə bilər. Belə hallarda, belə səlahiyyət verilmiş şəxslərlə bağlı ixtisaslılıq tələbləri səlahiyyətli orqan tərəfindən aydın şəkildə formalaşdırılmalı və belə şəxslər Bölmə IX-da nəzərdə tutulmuş şikayət proseduru barədə məlumatlandırılmalıdırlar.

14. Həyata keçirilən tibbi müayinələrin tələb olunan standartlara cavab verdiyinə əmin olmaq üçün səlahiyyətli orqan - keyfiyyət yoxlaması prosedurlarına malik olmalıdır. Belə prosedurlara həmçinin, aşağıdakılarla bağlı ictimaiyyətə açıqlanmış tədbirlər də daxil olmalıdır:

(i) gəmi sahibləri, dənizçilər və onların nümayəndələri tərəfindən tibbi müayinə prosedurları və səlahiyyətli tibbi fəaliyyətlə məşğul olan şəxslər barəsində verilmiş şikayətlərin araşdırılması;

(ii) həyata keçirilmiş tibbi müayinələr və onların nəticələri barədə tibbi fəaliyyətlə məşğul olan şəxslər tərəfindən verilmiş anonim məlumatların toplanması və təhlil edilməsi; və

(iii) mümkün olduğu hallarda, tibbi fəaliyyətlə məşğul olan şəxslərin təcrübələri və səlahiyyətli orqan tərəfindən və ya onun adından sənədləşmənin yoxlanılması məqsədi ilə ölkə səviyyəsində razılaşdırılmış baxışın və ya audit proqramının təqdim edilməsi. Bundan başqa, dənizçilərin tibbi müayinələrini həyata keçirmək öhdəliyi götürmüş şəxslər üçün müvafiq kənar klinik akkreditasiya tədbirlərinə də razılıq verilə bilər ki, belə tədbirlərin nəticələri səlahiyyətli orqana təqdim olunsun.

15. Müraciət, şikayət, audit proseduru nəticəsində və ya digər səbəblərdən tibbi fəaliyyətlə məşğul olan tanınmış şəxslərin səlahiyyətli orqan tərəfindən belə tanınma ilə əlaqədar tələblərə artıq cavab vermədiyi müəyyən olunarsa, belə şəxslərin dənizçilərin tibbi müayinəsini həyata keçirmək səlahiyyəti ləğv olunmalıdır.

### IV. Şikayət prosedurları

16. 2006-cı il MLC-də (Dəniz Əməyi Konvensiyasında) (Standart A1.2, paraqraf 5) nəzərdə tutulmuşdur ki, tibbi sertifikat verilməsindən imtina edilmiş və ya işləmək qabiliyyətlərinə məhdudiyyət tətbiq edilmiş dənizçilərə onların başqa müstəqil tibbi fəaliyyətlə məşğul olan şəxs və ya digər müstəqil tibbi hakim tərəfindən müayinə olunmaq imkanı verilməlidir. STCW (Dənizçilərin Hazırlanması, Sertifikatlaşdırılması və Növbə Çəkmə Standartları Haqqında Beynəlxalq Konvensiyanın) Bölmə A-I/9, paraqraf 6-na əsasən Konvensiyaya tərəf olan ölkələrdən tələb olunur ki, yararlılıq standartlarına cavab verməyən və ya barələrində məhdudiyyət tətbiq olunmuş dənizçilərin işinə həmin tərəf ölkənin şikayət təminatlarına uyğun olaraq təkrar baxılması imkanının təmin edilməsi üçün proses və prosedurlar müəyyən etsinlər.

17. Səlahiyyətli orqan şikayət üzrə tədbirləri və ya onların bir hissəsini ümumən dənizçilərlə bağlı oxşar funksiyaları həyata keçirən təşkilata və ya orqana həvalə edə bilər.

18. Şikayət proseduruna aşağıda qeyd olunan hissələr aid ola bilər:

(I) işə baxmaq vəzifəsini öz üzərinə götürmüş tibbi fəaliyyətlə məşğul olan şəxs və ya hakim ən azı ilkin müayinəni həyata keçirmiş tibbi fəaliyyətlə məşğul olan şəxs ilə eyni ixtisasa malik olmalıdır;

(II) işə baxmaq vəzifəsini öz üzərinə götürmüş tibbi fəaliyyətlə məşğul olan şəxs və ya hakim digər tibb ekspertlərinin dəstəyi üçün müraciət imkanı ilə təmin edilməlidir;

(III) şikayət proseduru dənizçi və ya gəmi sahibi üçün lüzumsuz nəticələrə səbəb olmamalıdır;

(IV) tibbi sənədlərlə davranış üzrə nəzərdə tutulmuş məxfilik prinsipləri şikayət ptoseduruna da şamil edilmişdir; və

(V) şikayət proseduru nəticəsində qəbul olunmuş qərarların uyğunluğu və adekvatlığını təsdiq etmək üçün keyfiyyətin təmin edilməsi və keyfiyyətə nəzarət prosedurları mövcud olmalıdır.

### H i s s ə 3.

Səlahiyyətli orqan tərəfindən tibbi müayinələr həyata keçirmək və tibbi sertifikatlar vermək səlahiyyəti verilmiş şəxslər üçün Təlimat

### V. Tibbi müayinənin gəminin təhlükəsizliyində və gəmi heyətinin sağlamlığında rolu

19. Tibbi fəaliyyətlə məşğul olan şəxs tibbi müayinənin dənizdə təhlükəsizliyin və sağlamlığın təkmilləşdirilməsində və dənizçilərin öz gündəlik və fövqəladə vəzifələrini yerinə yetirmək və gəmidə yaşamaq qabiliyyətlərinin qiymətləndirilməsində rolundan xəbərdar olmalıdır.

(i) Dənizdə işləyən zaman xəstəlik nəticəsində yarana biləcək səhhətin pisləşməsi halının doğurduğu nəticələr dənizçinin gündəlik və fövqəladə vəzifələrindən, habelə, gəmidən quruda yerləşən tibbi xidmət müəssisələrinədək məsafədən asılıdır. Belə səhhətin pisləşmə halı gəminin istismarına mənfi təsir göstərə bilər çünki, bu zaman fiziki şəxslər və tibbi xidmət göstərən şəxslər öz normal vəzifələrini icra edə bilməyəcəklər. Dənizdə xəstəlik halı gəmidə tibbi xidmətin məhdud olması səbəbindən, həmçinin fiziki şəxs özünü böyük riskə məruz qoya bilər, çünki gəmidə xidmət edən şəxslər yalnız ilkin tibbi yardım və digər tibbi təlimləri almış olurlar və gəmilər yalnız ilkin tibbi vasitələrlə təchiz olunur. Dənizçilər tərəfindən istifadə olunan dərman preparatları diqqətlə qiymətləndirilməlidir. Çünki, onların kənar təsirləri nəticəsində dənizdə qarşısı asanlıqla alına bilməyən patologiyalara səbəb ola bilər. Əgər dərman preparatı potensial olaraq həyati baxımdan təhlükəli olan xəstəliyi nəzarət altında saxlamaq üçün zəruridirsə, həmin preparatdan istifadə imkanının olmaması ciddi nəticələrə səbəb ola bilər.

(II) İnfeksion xəstəliklər gəmidə olan digər şəxslərə keçirilə bilər. Bu, xüsusilə qida və içkiləri hazırlayan şəxslərdə olan qida mənşəli infeksiyalara aiddir. Aidiyyəti infeksiyaların yoxlanması məqsədi ilə müayinələr tibbi müayinə zamanı və digər vaxtlarda həyata keçirilə bilər.

(III) Fiziki qabiliyyətlərin məhdudlaşması gündəlik və fövqəladə vəzifələrin yerinə yetirilməsi qabiliyyətinə təsir göstərə bilər (məsələn, nəfəsalma aparatından istifadə). Belə məhdudiyyətlər həmçinin xəsarət və ya xəstəlik halında dənizçilərin xilas edilməsini çətinləşdirə bilər.

(IV) Tibbi müayinədən xəstəliyi ilkin mərhələlərdə aşkarlamaq və ya gələcək xəstəliklər üçün risk amillərini müəyyənləşdimək imkanının təmin edilməsi üçün istifadə oluna bilər. Dənizçilərin dəniz karyeralarını davam etdirmələri üzrə imkanların artırılması məqsədi ilə dənizçilərə önləyici tədbirlər haqqında məsləhətlər verilə bilər və ya onlar daha təfərrüatlı araşdırmalar və müalicə üçün yönləndirilə bilərlər. Lakin, dənizçilər tibbi müayinənin digər klinik əlaqələrə ehtiyacı əvəz etmədiyi və ya sağlamlıqla bağlı tövsiyələr üçün əsas məsələlərə diqqəti cəmləmədiyi barədə xəbərdar edilməlidirlər.

(V) Əgər xəstəlik aşkar olunubsa, bu halda müayinələrin keçirilməsi mütəmadiliyinin artırılması, xəstəliyin uyğun olmadığı hallarda həmin şəxslərin vəzifələrinin məhdudlaşdırılması və ya gəmidə tibbi xidmətlərin göstərilməsini təmin etmək üçün səyahət növünün məhdudlaşdırılması yolu ilə xəstəliklərin doğura biləcəyi mənfi nəticələri azaltmaq mümkündür.

(VI) Dənizçilər gəmilərdə yaşayış və iş şəraitlərinə, o cümlədən günün müxtəlif vaxtlarında növbə çəkmək və gəminin əlverişsiz hava şəraitində hərəkəti tələbinə, gəminin məhdud sahələri daxilində yaşamaq və işləmək, dırmanaraq qalxmaq və çəkiləri qaldırmaq, habelə, müxtəlif hava şəraitlərində işləmək zərurətinə uyğunlaşmalıdırlar. (müvafiq fiziki qabiliyyətlərə dair müsallar üçün Əlavə C, cədvəl B-I/9-a baxın).

(VII) Dənizçilər uzun müddət ərzində və bir qayda olaraq gərgin iş şəraitində eyni insanlarla yaxından işləməyi bacarmalıdırlar. Onlar öz ailələrindən və yaxınlarından, hətta bəzi hallarda eyni mədəniyyətə malik olduqları insanlardan təcrid olunmanın effektiv şəkildə öhdəsindən gəlməyi bacarmalıdırlar.

20. Gəmi əməliyyatları və gəmidəki vəzifələr bir birindən əhəmiyyətli şəkildə fəqrlənir. Gəmilərdə müvafiq kateqoriyalardan olan işlərə dair fiziki tələblər haqqında daha dolğun təsəvvürlər üçün, tibbi fəaliyyətlə məşğul olan şəxslər düzəliş edilmiş 1978-ci il STCW (Dənizçilərin Hazırlanması, Sertifikatlaşdırılması və Növbə Çəkmə Standartları Haqqında Beynəlxalq Konvensiya) və aidiyyəti milli tələblər haqqında biliklər əldə etməli və aidiyyəti milli orqan, gəmiçilik şirkəti və həmkarlar ittifaqı təşkilatının nümayəndələri ilə məsləhətləşməli və dənizçilik həyatı haqqında mümkün qədər çox məlumat əldə etmək üçün başqa cür səy göstərməlidir.

### VI. Tibbi müayinələrin növü və tezliyi

21. Əsas xəstəliklər üzrə, dənizçilik karyerasının bütün mərhələlərində həyata keçirilən tibbi müayinələr üçün eyni meyarlar uyğundur. Lakin, gələcəkdə pisləşmək ehtimalı olan və bunun nəticəsində də dəniz məktəbinin müdaviminin və ya təlim keçən şəxsin tam tədrisi üçün zəruri olan bir sıra vəzifələri və tapşırıqları yerinə yetirmək qabiliyyətini məhdudlaşdıracaq hər hansı hal mövcud olarsa, bu halda bütün tədris tələblərinə riayət edilməsinin təmin edilməsi üçün yararlılıq standartlarının tətbiq edilməsi zamanı xidmətdə olan dənizçilərə nisbətən daha az seçim imkanı ola bilər.

22. Müayinələr bir qayda olaraq hər iki ildən bir həyata keçirilir. Lakin, daha mütəmadi tezliklə yoxlanılma tələb edən xəstəlik halı mövcud olarsa, tibbi müayinələr daha qısa aralıqlarla həyata keçirilə bilər. Daha mütəmadi tezliklərdə müayinələrin həyata keçirilməsi zərurətinin dənizçinin işlə təmin oluna bilmək imkanları məhdudlaşdırmasına və dənizçinin özü və ya onun işəgötürəni üçün əlavə məsrəflərə gətirib çıxarmasına səbəb ola biləcəyini qəbul etmək vacibdir. Əgər tibbi müayinələr iki ildən az vaxt fasiləsi ərzində həyata keçirilirsə, onlar ancaq nəzarət altında olan hallara aid ola bilər və bu halda, təkrarən verilmiş tibbi sertifikat əvvəlki tam müayinə tarixindən etibarən iki ildən artıq müddətə qüvvədə ola bilməz.

24. İşəgötürənlər və ya sığortaçılar tərəfindən irəli sürülən hər hansı tibbi müayinə tələbləri yararlılıq üzrə qanunvericiliyə əsaslanan müayinələrdən fərqləndirilməlidir; dənizçilər bunlardan hər ikisinin eyni vaxtda həyata keçirildiyi barədə məlumatlandırılmalı və bununla bağlı dənizçinin razılığı alınmalıdır. Tibbi sertifikat, dənizçinin işəgötürən tərəfindən irəli sürülən hər hansı əlavə tələblərə cavab verməsindən asılı olmayaraq, onun qanunvericiliyə əsaslanan standartlara uyğunluğu təsdiq edildiyi halda verilməlidir.

## YENİ SÜRƏT QATARININ SINAĞI KEÇİRİLİB



*Çinin sürət qatarları istehsalçısı olan CRRC Tangshan Co. kompaniyasının mühəndisləri saatda 350 kilometr sürət yığan və eyni vaxtda 1100-dən çox sərnişin daşıya bilən "Fusin" qatarının sınağını keçiriblər.*

Sinxua informasiya agentliyi xəbər verir ki, 16 vaqondan ibarət yeni qatarın uzunluğu 415 metrə çatır. Bu da hazırda Çin dəmir yollarında istismarda olan "Fusin" qatarlarına nisbətən iki dəfə çoxdur. Kütləvi istehsalına icazə alınması üçün yeni qatar daha bir sıra testlərdən keçməlidir. O, bütünlüklə Çində işlənib hazırlanıb və qurulub.

Saatda 350 kilometr sürətlə hərəkət edən "Fusin" qatarı ötən ilin avqustundan Pekin-Şanxay dəmiryol xəttində işləyir. Bu qatar sərnişinləri mənzil başına əvvəllər olduğuna nisbətən 1 saat 30 dəqiqə tez çatdırır.

## "ÜZƏN" BAZAR



***Bu ilin mayında Dubay-Krik körfəzində "BeYouLand" adı altında dünyada ilk "üzən" bazar işə salınacaq.***

Layihə özündə ənənəvi abra - ərəb qayığı formasını xatırladan Şərq dükanları üslubunda olan 17 qayıq-butiki birləşdirəcək. Bu qayıqlarda yerli və xarici brendlərdən olan geniş çeşiddə istehlak malları, həmçinin yemək və içkilər təklif olunacaq. Hər qayıq soyunub-geyinmə otaqları və kondisionerlərlə təchiz ediləcək.

Bununla yanaşı, bütün mağazalarda müştərilərə kafe xidmət edəcək. Layihənin müəllifi qismində Dubayın "Meraas" iri inşaat şirkəti çıxış edir.

*Asya Hacızadə*

## AVSTRALİYA SAHİLLƏRİNDƏ XIX ƏSRDƏN "GƏLƏN" MƏKTUB TAPILIB



***Avstraliya sakini çimərliklərin birində 132 il bundan öncə okeana atılan butulkanın içində məktub tapıb.***

ABC Australia telekanalının yaydığı məlumata görə, qadın ailəsi ilə birgə Pert şəhərindən 180 kilometr məsafədə yerləşən çimərlikdə gəzərkən qumun içində butulkaya rast gəlib.

"Biz onu evə gətirdik və qurutduq. Butulkanı açdıqda içində alman dilində əllə yazılan blankın olduğunu gördük", - deyə Tonya İllman bildirib.

Məktubda onun 1886-cı il iyunun 12-də yazıldığı və Avstraliyanın qərb sahillərindən 950 kilometr məsafədə Almaniyaya məxsus "Paula" adlı yelkənli qayığın göyərtəsindən atıldığı qeyd olunub. Ailə tapıntını ştatın muzeyinə təhvil verib.

Buradakı alimlər niderlandlı və almaniyalı həmkarları ilə birgə məktubun XIX əsrdən "gəldiyini" təsdiqləyib.

Qeyd edək ki, 1864-1933-cü illərdə alman gəmiləri okean cərəyanlarını tədqiq etmək üçün minlərlə belə qeydlərin olduğu butulkaları dənizə atırdı. Bundan əvvəlki ən qədim butulkadakı qeyd "göndərildiyi" vaxtdan 108 il sonra tapılan nümunə sayılırdı.

## ABŞ LNG İXRACINDA ASİYAYA YÖNƏLİB



***ABŞ mayeləşdirilmiş təbii qaz (LNG) ixracında Asiyaya yönəlib.***

Bu barədə Hyustonda keçirilən "IHS Markit CERAWeek 2018" enerji konfransındakı çıxışında ABŞ-ın ən böyük LNG ixracatçısı olan "Cheniere Energy" şirkətinin baş icraçı direktoru Jack Fusco deyib.

O bildirib ki, şirkət ötən 2 ildə 25 fərqli ölkəyə 300-dən çox LNG yükü göndərib. Həmin illərdə Asiya, Latın Amerikası və Avropa ölkələrinə LNG yollanılıb. Son dövrdə isə Asiyaya, xüsusilə də Çinə daha çox LNG yükü göndərilir. Artan tələbat və bahalaşan təbii qazın qiyməti ilə əlaqədar ABŞ LNG ixracında Asiyaya yönəlib. Jack Fusco deyib: "Çinin enerji portfelində kömürdən təbii qaza keçid mühüm əhəmiyyət kəsb edir. Çinin nə etmək istədiyini anlayırıq. Bu, onlar üçün ictimai bir məsələdir. Daha təmiz hava və ətraf mühitə ehtiyacları var və onlar bunu istəyirlər. Bu keçid uzunmüddətli olacaq və yaxın zamanda sona çatacağını düşünmürəm. Çinin LNG-yə olan tələbatı ildən-ilə 40 faiz nisbətində artım göstərir. Ölkənin mayeləşdirilmiş təbii qazı yenidən əmtəəlik qaza çevirən terminallar qurması da Çinin LNG-yə tələbatının artacağının göstəricisidir".

Şirkətin 2 il əvvəl ilk müştərilərinin Avropa şirkətləri olduğu deyən J.Fusco İngiltərə və Qərbi Avropa ölkələrinin enerji istifadəsində təbii qaz və kömür arasında dilemma yaşadığını bildirib: "Buna görə də "Cheniere Energy" Asiyadakı artan tələbatı ödəmək üçün bu qitəyə diqqəti yönəldib. Şirkət Sinqapurla yanaşı, Pekin və Tokioda da ofislər açıb. Asiyadakı əlaqəmiz yaxşıdır. Qitədə müvəffəqiyyətli olsaq şirkəti 2 dəfə böyütmək istəyirik".

## QADIN İLK DƏFƏ HƏRBİ GƏMİLƏR QRUPUNUN KOMANDANI TƏYİN EDİLİB



***Yaponiya hərbi-dəniz qüvvələrinin tarixində ilk dəfə qadın hərbi gəmilər qrupunun komandanı vəzifəsinin icrasına başlayıb.***

44 yaşlı birinci dərəcəli kapitan Ryoko Azumanın öz vəzifələrinin icrasına başlama mərasimi Tokio körfəzinin girişində yerləşən Yokosuka hərbi-dəniz bazasında keçirilib.

Yeni komandanın rəhbərliyi altında dörd hərbi gəminin, o cümlədən Yaponiya hərbi-dəniz qüvvələrinin nəhəng "İzumo" helikopter daşıyan gəmisinin olacağı da bildirilir. Bu gəmilərdə ümumilikdə 1000-dən çox şəxsi heyət xidmət edir. Yerli KİV-lərin yaydığı məlumatlara görə, hazırda "İzumo" gəmisinin əsaslı şəkildə modernləşdirilməsi planlaşdırılır ki, bu da hərbi "F-35B" təyyarələrini göyərtəyə qəbul etmək imkan verəcək.

R.Azuma Yaponiya tarixində ilk dəfə 2016-cı ildə hərbi gəminin kapitanı təyin edilən qadındır.

Son illər ölkənin silahlı qüvvələrinə qadınların cəlb olunması işi sürətlənib. Belə ki, bu yaxınlarda onlara hərbi təyyarələrin pilotu olmaq icazəsi də verilib.

## DÜNYANIN ƏN ÇİRKLİ ÇAYINI TƏMİZLƏYƏCƏKLƏR



***İndoneziyanın paytaxtı Cakarta şəhərinin hakimiyyət orqanları Çitarum çayının suyunu 2025-ci ilədək təmizləmək barədə qərar qəbul edib.***

AFP agentliyi xəbər verir ki, Dünya Bankının rəyinə əsasən, Çitarum dünyanın ən natəmiz su hövzəsidir. Aparılan araşdırmaların nəticələrinə görə, bu çayda toksik maddələrin miqdarı çox yüksəkdir və ilin müxtəlif vaxtlarında onun suyunun tərkibinin dəyişməsinə baxmayaraq, heç bir standarta cavab vermir. Yaranmış fövqəladə vəziyyət Cakartanın hakimiyyət orqanlarını 300 kilometr uzunluğu olan bu çayı yenidən təmizləməyə cəhd göstərməyə məcbur edib.

Ötən əsrin 80-ci illərində Cakartada sənaye zonası yaradılması nəticəsində çayın sahili boyunca 200-dən çox tekstil fabriki tikilib. Bu fabriklər hər gün su hövzəsinə 280 tona yaxın sənaye tullantısı atır. Bundan əlavə yerli sakinlər məişət tullantılarını da çaya tökürlər.

Belə ciddi təhlükəyə baxmayaraq, çayın suyundan suvarmaq, yuyunmaq və hətta içmək üçün 30 milyona yaxın indoneziyalı istifadə edir.

İndoneziya dəniz işləri naziri Coko Xartoyo bildirib ki, çayı təmizləmək üçün sahildə yerləşən müəssisələr ciddi nəzarətə götürüləcək və tullantıların ləğvi qaydalarına əməl etməyən fabriklər bağlanacaq. Bu məqsədlə çayın kənarında videokameraların quraşdırılması nəzərdə tutulur. Nazirin sözlərinə görə, çayı təmizləmək üçün xüsusi qurğulardan istifadə olunacaq. Görüləcək tədbirlər nəticəsində çayın suyunun 50-60 il əvvəl olduğu kimi təmizlənəcəyinə ümid bəslədiklərini qeyd edən C.Xartoyo, lazımi tədbirlərin tam ciddiliyi ilə həyata keçiriləcəyini bildirib.

*Vüqar Ağayev*

## ELEKTRİKLİ BALIQLAR

***Canlı varlıqların elektrik enerjisi buraxdıqları çox-çox əvvəllərdən məlumdur. Gərginliyi təmin edən ən güclü orqanlar əzələ və sinirlərdir. Bütün əzələ lifləri elektrik yükü daşıyır. Heyvanlar arasında elektrikə və işıqlı orqanlara malik olanları var və bu, onlara özünü müdafiə etməkdə, istiqamət tapmaqda və bəzi cinslərarası yaxınlaşmalarda yardım edir.***

Dənizdə və şirin suda yaşayan yüzlərlə növ elektrikli balıqlar var. Onların əzələ və sinir toxumalarından yaranmış xüsusi orqanlarda elektrik cərəyanı istehsal olunur. Həmin elektrik cərəyanı əksər hallarda bir iynə batması qədər zəifdir. Bəzi balıq növləri isə sarsıdıcı gücə malik elektrik cərəyanı istehsal edir. Həmin proses həqiqi mənada bir elektrik boşalması sıdır, yaratdığı təsir isə gerçək bir elektrik vurmasıdır.

Torpil balığı və elektrikli ilan balığı həmin balıqların ən tanınmış növləridir. Həqiqi ilan balıqları ilə heç bir əlaqəsi olmayan və şirin su hövzələrində yaşayan elektrikli ilan balığının 2.5 metrə qədər uzunluğunun beşdən dördü, xüsusilə quyruq hissəsi elektrik orqanları ilə örtülüdür. İlan balığı bir dəfədə 500-600 volt cərəyan boşaldaraq böyük heyvanları iflic edə bilir.

Elektrikli balıqlarda, başdan quyruğa qədər uzanan elektrik orqanları batareya hissələri kimi bir-birinə yapışaraq disk şəklində bölünmüş kiçik sütuncuqlardan meydana gəlir. Sinir sisteminin təsiri ilə həmin sütuncuqları təşkil edən yüzlərlə diskin alt səthləri müsbət elektrik yükü, o biri səthləri isə mənfi elektrik yükü ilə yüklənmiş olur. Beləliklə, disk yığımı tam bir "batareya" halına gəlir. Həmin canlı "batareya" beyindən gələn sinir impulslarından asılıdır. Balıq onu təhdid edənə elektrik ötürərək iflic vəziyyətinə salır.

Balıqların bədənində gedən elektrik boşalması davamlı deyil. Yığılan elektrik boşaldandan sonra yenidən elektrik toplanması üçün aradan bir müddət keçməlidir. Elektrikli balıqların vurmaları zamanı şiddətli ağrı, hətta süstləşmə ola bilər, bəzi hallarda isə öldürücü təsir göstərir.



## YARIZARAFAT, YARIGERÇƏK

**Başının ağrımasını istəməyən adam başını həmişə işlətməlidir.**

**Haram tikə yeyəndə ya haram tikə boğazda qalır, ya da boğazın kiminsə əlində.**

**Dünya dağılmayacaq. Arabir həqiqəti də demək lazımdır.**

**Ağladanda, varlılar da ağlayır.**

**Balığı quruda böyütmək üçün tutmurlar.**

**Adam var, dedikləri həqiqətə oxşaya bilər, amma heç vaxt həqiqət olmaz.**

**Yerdəkilərə etibar olmadığı üçün bəzilərini göyə qaldırırıq?**

**Çox adamın ən zəif yeri ağıldır.**

**Mən əxlaqlı olanların dininə inanıram.**

**Bu qədər başına daş düşəsi adamlar ola-ola, göydən niyə ancaq yağış və qar yağır?**

**Həyat ən çox zarafatı xoşlamayanlarla zarafat edir.**

**Yaşamaq istəyirsənsə, vaxt itirmə.**

**Gec ağıllanmaq da pis deyil, ən pisi heç ağıllanmamaqdır.**

**Bəzilərində xoşbəxtliyin açarı olur, sadəcə qıfılını tapa bilmir.**

**Nağıl danışanlara əyri-əyri baxmaq nəyə lazım? Nağıl danışmaq üçündür.**

**Qurdla qoyun arasında sülh sazişi uzağı qurd acana kimi qüvvədə olur.**

**Haqsızlıqdan yalnız haqlılar əziyyət çəkirlər.**

**Birinin üstünə beş də qoyanların verdiyi məlumata görə...**

**Fiziki boyunla öyünməkdənsə, mənəvi ucalığa yüksəl.**

**Pul hər qapını açırsa, qapıları kilidləməyə nə ehtiyac?**

**Həyatda ən çətin şey həmişə ayaqüstə dayana bilməkdir.**

**Düşüncələri çirkli adamlar təkcə ekoloji fəlakətə səbəb olmurlar.**

**Başqalarına kömək etməyi xoşlamayanlar böyük inadkarlıqla mane olurlar.**

**Səlahiyyəti olub, qabiliyyəti olmayan yalnız səlahiyyətindən istifadə edir.**

**Birinin necə adam olduğunu soruşdum. Elə baxdılar ki, sanki adam deyilmiş.**

**Hər kəs ona sərf olanı deyir.**

**Yalanın gücü olmasaydı, bəziləri ondan dördəlli yapışmazdılar ki...**

**İtirmək pisdir. Amma itirməyə heç nəyi olmamaq daha pisdir.**

**Hətta vaxtım olanda da heç kimdən heç nə gözləmədim.**

**Hər üç nəfərdən ikisi yalnız məsləhət verən yerdə nə qədər qabağa getmək olar?**

**Bəzi adamlara baxanda adama elə gəlir ki, yalan sağlamlığın rəhnidir.**

**İki adamın yeməyini yeyəndə də bir adamlıq adamlıq niyə olmasın?**

**Həqiqəti demək özünü qorumağın ən etibarlı yoludur.**

**Qalib və ya məğlub, fərqi yoxdur, axirətdə hər kəs sorğu-sual olunacaq.**

**Yalandan xəyanətə cəmi bir addımlıq yol var.**

**Uşaqların hamısı ağıllı olur. Bəs böyüklərin arasındakı bu qədər axmaq hardan peyda olur?**

**Mənim kimi düşünənlərin hamısı mənim günümdədir.**

**Vədlə əməl arasında ən qısa yol vicdandan keçir.**

**Bəzilərinin pul qazanmağa başları elə qarışır ki, insaflarını itirdiklərindən heç xəbərləri də olmur.**

**Adımın nəyi pisdir ki, bəziləri gördüyüm bütün işləri öz adlarına çıxarır?**

**Yalan danışmaq xüsusi istedad tələb edir və insanın heç bir qabiliyyəti bu "istedad"ı qədər tez üzə çıxmır.**

**Riyaziyyatda olduğu kimi, həyatda da düz əyrini həmişə kəssəydi, düz adamlar heç vaxt kəsilə-kəsilə qalmazdılar.**

*Rasif TAHİROV*

# YELKƏNLİ İDMAN FEDERASİYASININ KOMANDASI BEYNƏLXALQ YARIŞDA AZƏRBAYCANI TƏMSİL EDİB








***Azərbaycan Yelkənli İdman Federasiyasının (AYİF) komandası beynəlxalq yarışda 600-ə yaxın idmançı ilə mübarizə apararaq Azərbaycanı layiqincə təmsil edib.***

AYİF-dən bildirilib ki, "Optimist" sinfi üzrə yığma komandası Türkiyənin Bodrum şəhərində təşkil olunan 6-cı Bodrum Beynəlxalq Optimist Yarışında (BIOR) iştirak edib.

Federasiyanın İdman üzrə koordinatoru Burcu Algon Giorgianninin rəhbərlik etdiyi 3 oğlan və 2 qızdan ibarət komanda heyəti, 5 gün davam edən mötəbər yarışda 600-ə yaxın idmançı ilə mübarizədə ölkəmizi layiqincə təmsil etməyə nail olub.

2017-ci ildən etibarən AYİF-in hər il Bodrum Beynəlxalq Optimist Yarışında iştirak etməsinin əsas məqsədi idmançılarımızın beynəlxalq yarışlara hazırlıqlarının təkmilləşdirilməsi, onların taktiki biliklərinin artırılması və müxtəlif hava şəraitlərində yarış təcrübələrinin daha da gücləndirilməsidir.

Qeyd edək ki, yelkənçilərimiz sözügedən yarışda 21 ölkəni təmsil edən 96 ayrı yelkən klublarının idmançıları ilə mübarizə apararaq yarışları uğurla başa vurublar.

# "SHAMKİR CHESS-2018" SUPER TURNİRİNİN KEÇİRİLƏCƏYİ VAXT MÜƏYYƏNLƏŞİB




***Azərbaycanın məhrum şahmatçısı, beynəlxalq qrossmeyster Vüqar Həşimovun xatirəsinə həsr olunan ənənəvi "Shamkir Chess" super turnirinin iştirakçıları və keçiriləcəyi vaxt müəyyənləşib.***

Turnir aprelin 18-dən 28-dək Şəmkirdə keçiriləcək. Ümumilikdə 10 şahmatçının qatılacağı yarış dairəvi sistem üzrə 9 turdan ibarət olacaq. "Shamkir Chess-2018"də hazırkı dünya çempionu norveçli Maqnus Karlsen, eks-dünya çempionu rusiyalı Vladimir Kramnik, güclü hollandiyalı şahmatçı Aniş Giri, çinli Dinq Liren, bolqarıstanlı Veselin Topalov, daha bir rusiyalı Sergey Karyakin mübarizə aparacaqlar. Yarışda Azərbaycanı hazırda dünya reytinqində ikinci olan Şəhriyar Məmmədyarov, beynəlxalq qrossmeysterlər Teymur Rəcəbov və Rauf Məmmədov təmsil edəcəklər.

Xatırladaq ki, sonuncu iki "Shamkir Chess" turnirinin qalibi Şəhriyar Məmmədyarov olub.




## FUTBOL ÜZRƏ DÜNYA ÇEMPİONATINA EV SAHİBLİYİ ETMƏK İSTƏYƏNLƏRİN SAYI ARTDI

***Mərakeş futbol üzrə 2026-cı ildə keçiriləcək dünya çempionatına ev sahibliyi etməyə çalışır.***

"Mərakeş-2026" təşkilat komitəsinin rəhbəri Mulay Xafid Elaləmi İordaniyaya səfər edərək mundiala ev sahibliyi ilə bağlı Qərbi Asiya ölkələrinin dəstəyini almağa çalışıb.

Dünya çempionatına ev sahibliyinə dair FIFA-ya təqdim ediləcək iddia ərizəsini İordaniya Futbol Federasiyasının və Qərbi Asiya Ölkələri Futbol Federasiyaları Assosiasiyasının prezidentinə təqdim edən M.X.Elaləmi ölkəsinin namizədliyinin dəstəklənməsini istəyib.

Xatırladaq ki, Qərbi Asiya Ölkələrinin Futbol Federasiyaları Assosiasiyasına 12 ölkə daxildir. Mərakeş Afrika dövlətləri ilə yanaşı, bu ölkələrin də dəstəyinə ümid bəsləyir.

Dünyanın 221 ölkəsinin Futbol Federasiyasının nümayəndələri bu ilin iyununda Moskvada XXIII dünya çempionatına ev sahibliyi etmək iddiasında olan Mərakeş Krallığı və birgə ərizə ilə çıxış etmiş ABŞ, Meksika və Kanadanın namizədliyi arasında seçim edəcəklər.

***Aygün Əliyeva***

# DÜNYA TAEKVONDO FEDERASİYASININ YENİ REYTİNQ CƏDVƏLİNİN İLK ONLUĞUNDA ÜÇ İDMANÇIMIZ YER ALIB









***Dünya Taekvondo Federasiyasının Olimpiya çəkiləri üzrə yeni reytinq cədvəli Azərbaycan idmançıları üçün uğurlu olub.***

Mart ayı üçün tərtib olunan siyahıda yığmamızın üç taekvondoçusu yer alıb. Hesabında 423,14 xal olan "Rio-2016" Yay Olimpiya Oyunlarının qalibi, dünya və Avropa çempionu Radik İsayev 80 kiloqramdan yuxarı çəki dərəcəsində ikinci pillədədir. Dünya çempionu və Olimpiya mükafatçısı Milad Beigi Hərçeqani də (80 kq) 444,93 xalla reytinq cədvəlində ikinci yerdə qərarlaşıb. Altmış səkkiz kiloqram çəki dərəcəsində "Bakı-2015"in və İslamiadanın çempionu olan Ayxan Tağızadə isə 197,23 xalla səkkizinci pillədə yer alıb.

Reytinq xalları Dünya Taekvondo Federasiyasının təşkil etdiyi yarışlarda idmançıların aktivinə yığılan xallara əsasən verilir. Taekvondo qaydalarına görə 2020-ci ildə Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarınadək reytinq xalları sayəsində cədvəldə ilk altılıqda olacaq idmançılar Olimpiadaya birbaşa vəsiqə qazanacaqlar.



## QADIN ŞAHMATÇILARIMIZ TBİLİSİDƏ KEÇİRİLƏCƏK AVROPA ÇEMPİONATINDA İŞTİRAK EDƏCƏKLƏR

***Martın 30-dan aprelin 1-dək Tbilisidə qadın şahmatçılar arasında blits üzrə Avropa çempionatı keçiriləcək.***

Çempionatda Azərbaycan da daxil olmaqla 15 ölkədən 80 idmançı iştirak edəcək.

Gürcüstan Şahmat Federasiyasının prezidenti Gio Georqadze deyib ki, Tbilisi şəhər meriyasının baş sponsorluğu ilə təşkil olunacaq çempionatda şahmat üzrə ən güclü idmançılar, o cümlədən dünya və Avropa çempionları mübarizə aparacaqlar. Favoritlər arasında blits üzrə hazırkı Avropa çempionu Nana Dzanqnidze də var.

G.Georqadze Gürcüstanda şahmatın inkişafında SOCAR-ın Gürcüstan nümayəndəliyinin rolunu yüksək qiymətləndirib. Federasiyanın prezidenti bu köməyə görə SOCAR rəhbərliyinə minnətdarlıq edib.

***Xətayi Əzizov***



## QAZLI SULARIN ZƏRƏRLİ TƏSİRİ

***Qazlı suları içməyi sevənlərlə yanaşı, ondan iştahanı açmaq, həzm prosesini sürətləndirmək üçün istifadə edənlər də var. Lakin təəssüf ki, çox vaxt onun sağlamlığa vurduğu zərəri nəzərə almırlar.***

Qazlı suları seçərkən bir sıra məsələlərə fikir vermək lazımdır. Amerika alimlərinin apardığı tədqiqatlar nəticəsində müəyyən edilib ki, həftə ərzində dörd qutu keyfiyyətsiz qazlı su içmək sümüklərdə qırılmağa meyillilik yarada bilər. Həmin içkilərin tərkibindəki limon turşusu mədənin fəaliyyətinə mənfi təsir göstərir, ifrat istifadə edilməsi isə mədə xorası ilə nəticələnir. Müalicəvi təsirə malik qazlaşdırılmış sulardan da ehtiyatla istifadə edilməsi məsləhətdir. Bəzən həkimin icazəsi olmadan dükanlardan alınıb içilən həmin qazlı sular xroniki xəstəliklərə səbəb olur.

Qazlı içkilərin tərkibindəki kofein xoş əhvali-ruhiyyəni artırsa da, çox keçmədən yorğunluğa, yuxusuzluğa və gərginliyə aparıb çıxarır. Qazlı suyun tərkibindəki kimyəvi maddələr orqanizm üçün ziyanlı sayılır. Saxlanma qaydalarına düzgün əməl edilməməsi də müəyyən fəsadlar yaradır. Məsələn, bəzən günəş işığı altında saxlanılan qazlı suların tərkibi dəyişir. Həkimlərin fikrincə, qazlı su əvəzinə təmiz və saf su içmək daha faydalıdır. Kimyəvi qatqılar və boyalarla qarışdırılmış müxtəlif şirələri təmiz su ilə əvəz etmək olar.

# QANAZLIĞI VƏ ONUN ARADAN QALDIRILMASI YOLLARI

***Qanazlığı qanda eritrositlərin miqdarının azalması ilə xarakterizə olunan xəstəlikdir, onu başqa sözlə anemiya da adlandırırlar. Anemiya qırmızı qan hüceyrələrinin sayının, hemoqlobin konsentrasiyası və ya hematokritin normadan az olmasıdır. Eritrositlər daxilində olan hemoqlobin toxumalara oksigen daşıyan əsas maddədir. Hemoqlobin və eritrositlərin azlığı toxumaların oksigenlə təminatını pisləşdirir və hipoksiya adlanan hal yaradır və bu zaman ümumi zəiflik və yorğunluq hiss edilir. Anemiya müxtəlif səbəblərdən əmələ gəlir və davametmə müddətinə görə fərqli olur. Onun əsas səbəbləri arasında çoxlu qanitirmə, eritrositlərin parçalanmasının sürətlənməsi, sümük iliyində onların əmələ gəlməsinin azalması, keyfiyyətsiz qidalanma, mədə-bağırsaq traktının xəstəlikləri durur.***

Respublika Kliniki Uşaq Xəstəxanasının həkim-hematoloqu, tibb üzrə fəlsəfə doktoru Sevinc Əlifəttahzadə AZƏRTAC-ın müxbiri ilə bu barədə söhbət edərkən onu da deyib ki, orqanizmində olan 5 litrə qədər qanın əsas hissəsini plazma təşkil edir. Sağlam və yetkin adamın qanının 55 faizi plazma, 45 faizli isə hüceyrəvi elementlərdən ibarət olur. Uşaqlarda isə qanın hüceyrəvi elementləri plazmaya nisbətən daha çoxluq təşkil edir. Plazmada qan hüceyrələri- eritrositlər, leykositlər və qan lövhəcikləri-trombositlərdir və onlar qırmızı sümük iliyi hüceyrələrindən əmələ gəlir.



Plazmanın 90 faizi su, qalanı isə zülal, yağ, qlükoza, mineral duz və başqa maddələrdir.

Həkim-hematoloq deyib: "Qan orqanizmin, toxumalardakı hüceyrələrin qidalanması və tənəffüs proseslərində iştirak edir, müdafiə rolunu və tənzimləmə vəzifəsini daşıyır. Hərəkət etdiyi müddətdə bədəni isti saxlayır, soyudur, toxumaları qanla təchiz edir, qoruyur, ona enerji verir və orqanizm daxilindəki zəhərli maddələrin atılmasını təmin edir. Orqanlar arasında əlaqənin demək olar ki, hamısını öz üzərinə götürür. Bundan başqa damarlarda əmələ gələn zədələnməni qanda olan fibrin lifləri qan damarının zədələnmiş hissəsinə çökür və tor əmələ gətirərək aradan qaldırır. Beləliklə, orqanizm müntəzəm olaraq yenilənir.

Bir qırmızı qan hüceyrəsi orqanizmdə təxminən 120 gün yaşayaraq öz vəzifəsini yerinə yetirir və makrofaq müdafiə hüceyrələri tərəfindən məhv edilir.

Eritrositlər daxilində olan hemoqlobin toxumalara oksigen daşıyan əsas maddədir. Hemoqlobin və eritrositlərin azlığı toxumaların oksigenlə təminatını pisləşdirir və yaranan hipoksiya halı zaman ümumi zəiflik və yorğunluq hiss edilir. Anemiya müxtəlif səbəblərdən əmələ gəlir və davametmə müddətinə görə fərqli olur.

Anemiya zamanı xəstə taxikardiya, təngnəfəslik, rəngin avazıması, başgicəllənmə, bəzən başağrısı, yorğunluq, tərləmə və ağızda quruluq, qulaqda küylər, arterial təzyiqin düşməsi, nəbzin zəif dolğunluqda olması və tezləşməsindən şikayətlər edir.

Anemiyanın bir neçə forması var: dəmirdefisitli, siankobalimindefisitli, hemolitik, hipo və aplastik anemiyalar. Dəmirdefisitli anemiya kəskin və xroniki qanitirmələr, qida rasionunda dəmirin çatışmazlığı hallarında inkişaf edir. Orqanizmdə dəmirin azalması eritrositlərdə dəmirin miqdarının azalması və toxumaların qidalanmasının pozulması ilə nəticələnir. Orqanizmdə daxil olan dəmir bədəndə daim sirkulyasiya edərək bir eritrositdən digərinə ötürülür. Qanaxmadan sonra itirılən dəmir ehtiyatı mütləq bərpa olunmalıdır. Anemiyanın əlamətləri dəri rənginin solğunlaşması, başgicəllənmə, ürəkbulanma, yuxululuq, halsızlıq, yorğunluq, iştahanın zəifləməsi, başağrıları, bayılma və qıcolmadır".

Mütəxəssis onu da qeyd edib ki, qanda müayinə aparmadan xəstəyə dəmir preparatı vermək olmaz, çünki qanda dəmirin miqdarı artıq olduqda ağır fəsadlarla nəticələnə bilər. Elə xəstəliklər var ki, onların orqanizmində dəmirin miqdarı artıq olur. Ona görə də hər bir müalicə fərdi şəkildə aparılmalıdır.

Qanazlığı zamanı qida rasionunda mal əti, xüsusən də malın dili üstünlük təşkil etməlidir. Qaraciyərdə 90 faiz dəmir olmasına baxmayaraq onun çox az hissəsi orqanizmdə sorulur. Yeməkdən əvvəl təzə qaynadılmış düyünün suyunu içmək, eyni miqdarda limon, qara gavalı, qoz, üzüm yeyilməsi, qida rasionunda noxud, cəfəri, ispanaq, ərik qurusu, nar, üzüm, düyü, qarabaşaq olması məsləhətdir. Tərkibində C vitamini olan meyvələrə üstünlük vermək lazımdır.

Onun dediyinə görə, ərik qurusu xırdalanaraq üzərinə bal əlavə edilir və hər səhər yeməkdən əvvəl 1 xörək qaşığı qəbul edilir. Gündə 3 dəfə tünd bal yemək də məsləhət görülür. Tünd balın tərkibində minerallar daha çoxdur.




## DİABET XƏSTƏLƏRİ ÜÇÜN "AĞILLI" SAAT

***"Apple" şirkətinin yeni təqdim etdiyi saatlar şəkərli diabet xəstəliyini erkən mərhələdə diaqnoz qoymağa imkan verəcək. Həkimlər hesab edirlər ki, yeni texnologiya xəstəliyinə ilkin mərhələdə səmərəli müalicəsi üçün əhəmiyyətlidir.***

Şirkətin istehsal etdiyi "ağıllı" saatlar neyron şəbəkəsinin köməyi ilə diabet xəstəliyinə düzgün diaqnoz qoymağı "öyrənib". ABŞ-ın Kaliforniya universitetinin alimlərinin apardığı yeni araşdırmaya görə, saat pasiyentlərdə diabet xəstəliyini 85 faiz dəqiqliklə müəyyənləşdirir. Mütəxəssislər saatın 14 min istehlakçısının nəticələrini araşdıraraq bildiriblər ki, qurğu 462 nəfərdə həmin xəstəliyi aşkar edib. Alimlər məlumatları yenidən yoxlayıblar və məlum olub ki, "ağıllı" saat kifayət qədər dəqiq diaqnoz qoyur. Məlumata görə, "ağıllı qurğu" nəbzin ölçülməsi nəticələrini təhlil edən kardiodatçik və neyron şəbəkəsinin köməyi ilə diabet xəstəliyini müəyyən edə bilir.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
30-67 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 808